ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN PEDAQOJİ HEYƏTİ ÜÇÜN DİSTANT TƏHSİLİN TƏŞKİLİ

## (METODİK VƏSAİT)

**Bakı-2023**

*Metodik vəsait Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi şurasının 19 oktyabr 2021-ci il tarixli (protokol № 3) iclasının qərarı ilə nəşr edilir.*

***Elmi redaktor:*** ***Rüfət Əzizov,***
*ARTİ-nin direktoru,*
*kimya üzrə fəlsəfə doktoru*

***Rəyçilər:*** ***İlham Cavadov,***
*ARTİ-nin direktor müavini,*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

***Könül Abaslı,***
*ARTİ-nin direktor müavini,*
*pedaqogika üzrə fəlsəfə doktoru*

**Abutab Abbasova, Həsən Əlili, Əli Tağıyev, Aytən Məhərrəmova. Ali və orta ixtisas təhsili müəssisələrinin pedaqoji heyəti üçün distant təhsilin təşkili (metodik tövsiyə).**
**Bakı: “CN POLİGRAFİYA”, 2023, 84 səh.**

Metodik vəsaitdə distant təhsil və onun xüsusiyyətləri, Azərbaycanda distant təhsil, distant təhsil fənninin məqsədi və öyrənmə hədəfləri, fənnin dizaynı, eləcə də təhsilalanı tanıma, qiymətləndirmə, tədris strategiyaları / öyrənmə fəailiyyətləri, kommunikasiya və platformalar kimi məsələlər ətraflı şəkildə işıqlandırılmışdır.

Metodik vəsaitdən ali məktəb müəllimləri, tələbələr, təhsil sahəsi üzrə mütəxəssislər, doktorantlar və dissertantlar istifadə edə bilər.

**©ARTİ, 2023**

# Mündəricat

**1.GİRİŞ**......5
*1.1. Distant təhsil nədir?*......5
*1.2. Hansı növləri var?* ......5
*1.3. Hansı üsulları var?* ......6
*1.4. Üstünlükləri və çətinlikləri nələrdir?* ......7
*1.5. Azərbaycanda distant təhsil*......9
**2.DİSTANT TƏHSİLƏ MÜƏLLİMLƏRİN HAZIRLIQ SƏVİYYƏSİ**......10
*2.1. Distant fənni tədris etmək üçün vacib amillər*......10
*2.2. Müəllimlərin distant təhsildə rolu*......11
*2.3. Müəllimlərin öhdəlikləri*......12
*2.4. Müəllimlərin sahib olmalı olduqları bacarıqlar*......12
*2.5. Bacarıqların inkişafı üçün platformalar*......17
**3.FƏNNİN MƏQSƏDİ, ÖYRƏNMƏ HƏDƏFLƏRİ VƏ NƏTİCƏLƏRİ** ......18
*3.1. Fənnin məqsədi, öyrənmə hədəfləri və nəticələri arasında fərq* ......18
*3.2. Öyrənmə nəticələrini yaratmaq*......20
**4.DİSTANT FƏNNİN DİZAYNI** ......24
*4.1. Fənnin dizaynı* ......24
**5.TƏHSİLALANI TANIMA**......31
**6.QİYMƏTLƏNDİRMƏ** ......35
*6.1. Qiymətləndirmə növləri və prosesi* ......35
*6.2. Onlayn nəzarət olunan imtahanlar və onlara alternativlər*......38
*6.3. Qiymətləndirmə rubrikaları*......41
**7.TƏDRİS STRATEGİYALARI/ÖYRƏNMƏ FƏALİYYƏTLƏRİ**......44

*7.1. Tədris strategiyaları* .......................................................... 44
*7.2. Aktiv öyrənmə fəaliyyətləri* ................................................ 48
**8.KOMMUNİKASİYA**.................................................................. 52
**9.PLATFORMALAR** .................................................................... 57
**10.ƏDƏBİYYAT**............................................................................ 63
**11.ƏLAVƏLƏR** .............................................................................69
*Əlavə 1. Distant fənni tədris etmək üçün hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi sorğusu* ............................. 69
*Əlavə 2. Öyrənmə nəticələrini yazmaq üçün iş vərəqi* ....... 711
*Əlavə 3.Geriyə doğru dizayn ilə bağlı suallar və iş vərəqi*.........................................................................................722
*Əlavə 4. Situasiyadan asılı olan müxtəlif faktorlar* ............ 755
*Əlavə 5. Öyrənmə nəticələri üçün iş vərəqi* ......................... 777
*Əlavə 6. İlkin mərhələnin komponentlərinin inteqrasiya olunması*........................................................................... 79
*Əlavə 7. İlkin mərhələdə fənni dizayn etmək üçün cədvəl*.. 800
*Əlavə 8. Həftələr üzrə fəaliyyətlərin planlanması üçün iş vərəqəsi* ......................................................................... 811
*Əlavə 9. Tələbələrin onlayn öyrənməyə hazırlıq səviyyələrini ölçən sorğu nümunəsi* ..................................... 822

# 1. GİRİŞ

## *1.1. Distant təhsil nədir?*

Bir başqa adla məsafədən təhsil də adlanan distant təhsil tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunmasını reallaşdıran bir təhsilalma formasıdır. Bu metodik vəsaitdə distant təhsil, öyrənənin təhsil müəssisələrindən uzaqda, müəllim ilə fiziki təmas qurmadan təhsilini reallaşdırmasına kömək üçün müxtəlif təhsil proqram-larının elektron/onlayn tədrisi kimi nəzərdə tutulmuşdur.

## *1.2. Hansı növləri var?*

**Qiyabi öyrənmə** – bu təhsil ilə təhsilalanlar dərs vəsaitlərini, tapşırıqlarını və digər tədris materiallarını poçt vasitəsilə alır, vaxtları olduqca onlarla tanış olur. Müəllim isə ehtiyac olduqca öyrənmə prosesinə elektron-poçt, telefon, mesaj və ya post ilə dəstək göstərir.

**Elektron öyrənmə** – təhsilalanlara kompüterdə dərs materiallarına daxil olub oxumaq imkanı verir. Öyrənmə prosesində CD, DVD və müxtəlif kompüter tətbiqetmələrindən istifadə etmək mümkündür.

**Onlayn öyrənmə** – e-öyrənmənin bir növü olan onlayn öyrənmədə internet bağlantısının olması tələb olunur. Distant öyrənmənin digər növlərindən daha interaktiv olub təhsilalanın müəllimlər, tyutorlar və digər tələbələr ilə ünsiyyət qurmasına imkan yaradır. Onlayn tədris zamanı tələbələr virtual dərslərdə, vebinarlarda iştirak edə, internetdən dərs materiallarını endirə və tapşırıqları sistemə yükləməklə təhvil verə bilərlər.

## *1.3. Hansı üsulları var?*

Distant təhsildə öyrənmə fəaliyyətlərini iki cür təşkil etmək üsulu vardır: sinxron və asinxron (Cədvəl 1).

*Cədvəl 1. Müxtəlif distant təhsil üsulları*[1]

| Üsul | İzah | Üstünlüklər | Dezavantajlar |
|---|---|---|---|
| **Sinxron** | Real vaxtda təhsilalanlar və müəllim müxtəlif məkanlardan canlı qoşularaq öyrənmə fəaliyyətlərində iştirak edirlər. | -Eyni zamanda təhsilalan müəllim və qrup yoldaşları ilə əlaqə saxlaya bilər.<br>-Təhsilalan müəllimdən anında rəy ala bilər.<br>-Müzakirələrdə iştirak etmək və sual verə bilmək imkanı təhsilalanı öyrənməyə həvəsləndirir. | -Planlaşdırılmış vaxtlarda sessiyalarda iştirak etmək vacib olduğundan cədvəli uyğunlaşdırmağa ehtiyac vardır.<br>-Müvafiq texnologiyaya çıxış mütləqdir (bu, əlavə maliyyə resursu tələb edə bilər).<br>-Müvafiq texnologiyadan istifadə etmək bacarığı olmalıdır. |
| **Asinxron** | Təhsilalanlar və müəllimin real vaxtda öyrənmə fəaliyyətlərində iştirakı vacib deyil. Dərslər daha rahat cədvəl üzrə keçirilir, təhsilalanlar müxtəlif saatlarda və müxtəlif yerlərdən dərs materiallarına daxil ola bilərlər. | -Cədvəli müəyyən etməkdə sərbəstlik vardır.<br>-Təhsilalanlar dərs materialları ilə öz vaxtlarına uyğun olaraq tanış ola bilərlər. | -Fərdi şəkildə təhsil almaq üçün daha çox intizam gərəklidir.<br>-Təhsilalanın qrup yoldaşları ilə qarşılıqlı əlaqə yaratması üçün az imkanı olur.<br>-Müəllimlərdən rəy almaq üçün təhsilalan daha çox gözləyə bilər. |

[1] Oxbridge Academy (n.d.)

Bir çox araşdırmalar (Lin və Gao, 2020; Serdyukov, 2020; Lim, 2017) göstərir ki, distant təhsilin sinxron formatda təşkil olunması zamanı təhsilalanların bir-birilərini tanımağa daha çox imkanı olur və canlı olaraq ideyalarını bölüşə bilirlər.

Bu faktor da onları öyrənməyə həvəsləndirir. Asinxron distant təhsil zamanı isə bu cür imkanlar məhdudlaşsa da, onun vaxtın idarə edilməsində təhsilalanın sərbəstliyi və müstəqil öyrənmə imkanının olması kimi üstün cəhətləri müəyyən olunmuşdur (ibid.). Eyni zamanda təhsildə sinxron və asinxron öyrənmənin müxtəlif çatışmazlıqları olduğundan, effektiv tədris məqsədilə fəaliyyətləri təşkil edərkən hər iki üsuldan bir-birini tamamlaması üçün istifadə etmək tövsiyə olunur (Yamagata-Lynch, 2014; Giesbers və digərləri, 2013).

## *1.4. Üstünlükləri və çətinlikləri nələrdir?*

Distant təhsilin müxtəlif üstünlükləri olsa da, mövcud çətinliklərin (Cədvəl 2) təsirinin minumuma endirilməsi və onların aradan qaldırılması üçün müvafiq addımların atılmasına gərək vardır. Bu metodik vəsait də müəyyən dərəcədə bəzi məsələlərin həll edilməsi və mühitin təkmilləşdirilməsi məqsədilə müəllimlərə tövsiyələr vermək məqsədi daşıyır.

*Cədvəl 2. Distant təhsilin təhsilalanlar, müəllimlər və təhsil müəssisələri üçün bəzi üstünlükləri və çətinlikləri*

| Tərəflər | Üstünlüklər | Problemlər/Çətinliklər |
|---|---|---|
| Təhsilalanlar | - Zaman və məkan baxımından rahatlıq (FAO, 2021).<br>- Səyahət/yol xərclərinin azalması.<br>- İnklüzivlik imkanının yaradılması.<br>- Rəqəmsal bacarıqların inkişaf etdirilməsi.<br>- Müasir texnologiyadan istifadə imkanı (Serdyukov, 2020). | - Öyrənən və öyrədən arasında fiziki ünsiyyətin olmaması (Davis, Gough və Taylor, 2019).<br>- Daha az interaktiv olması, ünsiyyət bacarıqlarının zəif inkişafı (Özüdoğru, 2021).<br>- Vaxtın düzgün idarə edilə bilməməsi (Davis, Gough və Taylor, 2019).<br>- Ekran qarşısında daha çox vaxt keçirmək (Gautam, 2020).<br>-Onlayn tədrisdə iştirak etmək üçün texniki və ya maddi cəhətdən çatışmazlığın olması, evdən onlayn materiallara daxil ola bilməmək kimi amillər (Apriyanti, 2020). |
| Müəllimlər | - Müasir texnologiyadan istifadə imkanı.<br>-Rəqəmsal bacarıqların inkişaf etdirilməsi.<br>-Administrativ işlərin az olması. | -Öyrənən və öyrədən arasında fiziki ünsiyyətin olmaması.<br>-Vaxtın düzgün idarə oluna bilməməsi.<br>-Təhsilalanların rəyinin az olması (Dumford və Miller, 2018). |
| Müəssisələr | - Müasir texnologiyadan istifadə imkanı.<br>-Təşkilati xərclərin az olması.<br>-İnklüziv təhsil imkanlarnın yaradılması (Moore və Kearsley, 2011). | - Öyrənən və öyrədən arasında fiziki ünsiyyətin olmaması.<br>-Texniki təhlükəsizliyin az olması (Fojtík, 2018).<br>-İlk təşkil edərkən sistemi qurarkən və rəqəmsal məzmun yaradarkən xərclərin çox olması. |

## *1.5. Azərbaycanda distant təhsil*

Azərbaycan Respublikasının Təhsil haqqında qanununda (2009) distant və ya məsafədən təhsil tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması kimi öz əksini tapmışdır. O zamandan bəri bu təhsilalma formasının inkişaf etdirilməsi və istifadəsi üçün bir sıra təşəbbüslər[2] edilsə də, Covid-19 pandemiyası Azərbaycanda məsafədən təhsil formasının geniş şəkildə tətbiq edilməsi üçün imkan yaratdı. Belə ki, 2020-ci ilin mart ayının 2-dən ali və orta ixtisas təhsili müəssisələrində ənənəvi qaydada tədris fəaliyyətinin dayandırılması distant təhsilalma formasına keçidi sürətləndirdi. 2021-ci ilin əvvəlindən ənənəvi təhsil formasına geri qayıdılsa da, məsafədən təhsilin Azərbaycanda istifadəsini davamlı etmək qarşıya qoyulan əsas hədəflərdəndir. Bu metodik vəsaitin də əsas məqsədi ali və orta-ixtisas təhsili müəssisələrində çalışan pedaqoji heyətə öz fənlərini və yeni məzmunu gələcəkdə tədris etmələri üçün yol göstərmək və tövsiyələr verməkdir.

[2] "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və s.

# 2. DİSTANT TƏHSİLƏ MÜƏLLİMLƏRİN HAZIRLIQ SƏVİYYƏSİ

## *2.1. Distant fənni tədris etmək üçün vacib amillər*

Məsafədən təhsil müəllimlərin tədris edəcəkləri fənlərin məzmununu yaratmaları və ya təkmilləşdirmələri baxımından xüsusi vaxt tələb etsə də, onları yeni bacarıqlara yiyələnməyə sövq edir. Belə ki, müəllimlərin ənənəvi təhsil təcrübəsi olsa da, distant təhsilin tələblərinə uymaq və keyfiyyətini təmin etmək üçün xüsusi hazırlığa ehtiyac vardır. Müəllim distant şəkildə fənni tədris etmək yükünü üzərinə götürməmişdən əvvəl aşağıdakı məsələləri nəzərdən keçirməlidir (Becker və digərləri, 2014):

1) Fənnin mövcud məzmununu onlayn tədrisə adaptasiya etmək üçün hazırlıq səviyyəsi;

2) Məsafədən öyrətmə və öyrənmə, təhsil texnologiyalardan istifadə ilə bağlı müəllimin təcrübəsi;

3) Onlayn öyrənmənin məğzini müəllimin anlaması.

Bu komponentləri nəzərə alaraq müəllim məsafədən təhsilə öz ənənəvi tədris etdiyi fənni uyğunlaşdırmalıdır. Bu hal mövcud materialların rəqəmsal formata keçirilməsini, ənənəvi təhsildə istifadə olunan İKT vasitələrinin seçilməsi və ya dəyişdirilməsini və s. kimi halları tələb etdiyindən müəyyən vaxt ala bilər. Müəllimin yeni platformalar, pedaqoji üsullar, alətlər, texnologiyalar barəsində bilik və bacarıqlarını artırmağa ehtiyac varsa, bu hal da müəyyən vaxt tələb edəcəkdir. Eyni zamanda müəllimin bu növ təhsil formasında ondan gözləntiləri bilməməsi və ya bu barədə yanlış düşünməsi prosesi ləngidə bilər. Bu cəhətdən göstəriləcək səyin səviyyəsinin müəyyənləşdirilməsi üçün müəllimlərin öz hazırlıq səviyyələrini

qiymətləndirəcəyi qısa sorğu anketi Əlavə 1-də verilmişdir.[3]

Bu fəsildə müəllimlərin distant təhsildə rolu, öhdəlikləri, fənlərini məsafədən tədris etmək üçün lazım olan bacarıqlar və onların inkişafı üçün onlayn platformalar göstərilmişdir.

## *2.2. Müəllimlərin distant təhsildə rolu[4]*

*Diaqram 1. Müəllimlərin distant təhsildə rolu*

| |
|---|
| **Öyrənmə resursu**<br>Öyrənmə prosesini dizayn edən və materialları hazırlayan |
| **Nümayişçi**<br>Müxtəlif texnologiyaları məqsədə görə seçərək və onlardan istifadə edərək tədris prosesini təşkil edən |
| **Qiymətləndirən**<br>Distant təhsildə tapşırıqların sistemli və müstəqil şəkildə yerinə yetirilməsini və təhsilalanların yeni materialları öyrəndiyini qiymətləndirən |
| **Motivator**<br>Yeni təhsilalma formasında təhsilalanlarda motivasiyanı yaradan və saxlayan |
| **İdarəçi**<br>Öyrənmə nəticələrinə nail olunması məqsədilə tədris prosesini idarə edən |
| **Öyrənmə resursu**<br>Öyrənmə prosesini dizayn edən və materialları hazırlayan |

[3] Cavablarınız əsasında fənni tədris etmək üçün daha yaxşı planlama apara bilərsiniz.

[4] Mayasari və Kemal (2020)

## *2.3. Müəllimlərin öhdəlikləri*

*Diaqram 2. Distant təhsildə müəllimlərin öhdəlikləri*




## *2.4. Müəllimlərin sahib olmalı olduqları bacarıqlar*

Müəllimlər üçün onların mövcud bacarıqları distant təhsilin tələblərinə uyğun olmaya bilər. Bu səbəbdən aşağıda müxtəlif ədəbiyyatlarda müəyyən olunan distant təhsil üçün 6 bacarıq öz əksini tapmışdır[5]:

---

[5] Albrahim (2020), OAİ+ (t.y.)

**Pedaqoji bacarıqlar** – distant tədris etmək üçün müəllimlər bu cür formada tədris və pedaqogika barədə məlumatlı olmalıdırlar. Bir çox prinsip və strategiya tətbiq etməklə müəllimlər bu bacarıqlarını nümayiş etdirə bilərlər. Aşağıda bu bacarıqlara misallar verilmişdir:

- Müxtəlif öyrənmə nəzəriyyələri barədə məlumatlı olmaq;
- Müvafiq tədris strategiyalarını, qiymətləndirmə və təhsilalanların iştirakçılığını artırma texnikalarını dizayn və icra etmək;
- Təhsilalanların iştirakçılığı üçün müxtəlif öyrənmə fəaliyyətlərini təşkil etmək və ehtiyac olduqca yol göstərmək və dəstək vermək;
- Fərdi və qrup fəaliyyətini qiymətləndirmək üçün kriteriya əsaslı qiymətləndirmədən istifadə etmək;
- Tələbələri həvəsləndirmək və onlara maraq göstərmək;
- Təhsilalanların ilkin bilikləri və həyat təcrübələri əsasında biliklərini, əsaslandırmalarını təşviq etmək;
- Təhsilalanların özünüqiymətləndirməsini təmin etmək;
- Qarşılıqlı fəaliyyət, əməkdaşlıq və komanda işini təşviq etmək.

**Texnoloji/texniki bacarıqlar** – bu növ bacarıq müəllimlərin distant təhsil alətlərini seçməsini və onlardan effektiv istifadəni asanlaşdırır. Müəllim məsafədən tədris etmək üçün aşağıda göstərilənləri bacarmalıdır:

- E-poçt, internet brauzerləri, öyrənmənin idarə olunması sistemləri (Blackboard, Moodle və s. kimi), mesajlaşma və videodanışıq tətbiqetmələri, məhsuldarlığı artıran

proqram təminatları və s. kimi müxtəlif texnoloji resurslara və alətlərə daxil olmaq;

- Bu vasitələrin öyrənmə və öyrətmə imkanlarını və məhdudiyyətlərini anlamaq;
- Elektron kitablar və təlimat videoları və s. kimi elektron məzmunun yaradılması üçün istifadə olunan prosedurlar və onların texniki potensialı barədə məlumatlı olmaq;
- Təhsil texnologiyası və proqram təminatının ən son yenilikləri barədə xəbərdar olmaq;
- Sosial media və ya digər müzakirə forumları vasitəsilə başqaları ilə onlayn söhbət etmək.

**Məzmun bacarıqları** – Bu bacarığa misallar aşağıdakılardır:

- Məzmun haqqında geniş biliyi ifadə etmək və mənimsəmək;
- Təhsilalanların bilik və bacarıq səviyyələrinə və xarakteristikalarına uyğun fənnin məqsəd və öyrənmə hədəflərini yaratmaq;
- Fənnin məqsəd və öyrənmə hədəflərinə uyğun öyrənmə və qiymətləndirmə fəaliyyətlərini yaratmaq;
- Fənnin və ya dərsin bütün komponentlərini və elementlərini özündə birləşdirən fənn proqramını hazırlamaq;
- Müxtəlif öyrənmə stillərini və seçimlərini özündə cəmləşdirən tədris resurslarını və materiallarını hazırlamaq və seçmək;
- Mövzu və məzmunu elmi, sosial, mədəni və hər hansı digər müvafiq hadisələrlə əlaqələndirmək.

**İdarəetmə bacarıqları** – məsafədən təhsil sistemində onlayn tədrisi idarəetmə müəllimlər üçün digər vacib bacarıqlardandır. Aşağıda qeyd edilən bacarıqlar verilmişdir:

- Müəllim və təhsilalanların rollarını və gözləntilərini aydınlaşdıra bilmək;
- Dərsin vaxtını idarə etmək və vaxta qənaət edən texnikaları tətbiq etmək;
- Liderlik, idarəetmə, mentorluq və koçluq bacarıqlarını, habelə inzibati keyfiyyətlər və prosedurlar haqqında bilikləri nümayiş etdirmək;
- Dərsin və təhsilalanların mütəmadi olaraq gedişatını izləmək;
- Onlayn tədris və idarəetmə qrupları ilə əlaqə və şəbəkəni saxlamaq;
- İştirak, tapşırıqların təqdim edilməsi, rəylərin göndərilməsi, iştirak üçün qaydalar yaratmaq və bəyan etmək;
- Müəssisənin siyasətlərini anlamaq və onlara əməl etmək;
- Leqal, etik, müəlliflik qaydalarına riayət etmək.

**Dizayn bacarıqları** – məsafədən təhsildə fənnin onlayn tədrisinin dizaynı müəllimlərin sahib olması gərəkən bacarıqlardan biridir. Müəllimlər aşağıdakıları edə bilərlər:

- Tədris dizaynının prinsiplərini, modellərini və nəzəriyyələrini başa düşmək və tətbiq etmək;
- Müxtəlif formatlarda tədris materiallarını təşkil və təqdim etmək;
- Müəssisənin digər məsul şəxsləri ilə öyrənmə fəaliyyətlərini dizayn etmək və onlardan istifadə etmək üçün müvafiq alətləri seçmək məqsədilə əməkdaşlıq etmək;

- Təhsilalanların əvvəlki rəylərindən istifadə edərək yeni fənni hazırlamaq və layihələndirmək, keyfiyyət təminatı alətlərindən (qiymətləndirmə) istifadə etməklə fənnin dizayn keyfiyyətini qiymətləndirmək.

**Kommunikasiya bacarıqları** – aktiv kommunikasiya distant təhsildə öyrədən və öyrənən arasında qarşılıqlı əlaqə yaradır. Onlayn tədris edən müəllimlər auditoriyanı ələ almaq üçün aşağıdakı bacarıqlara malik olmalıdırlar:

- İnteraktiv müzakirələri və məlumat mübadiləsini asanlaşdırmaq və dəstəkləmək;
- Hamı tərəfindən başa düşülən dildən istifadə etmək;
- Mədəni fərqlərə hörmət etmək və nəzərə almaq;
- Aydın şəkildə məlumat tələb etmək və suallara cavab vermək;
- Şrift rəngləri və effektlərindən istifadə edərək vacib məqamları vurğulamaq;
- Yazılı mesajların və rəyin keyfiyyətini və düzgünlüyünü təmin etmək, çap və qrammatik səhvləri aşkar etmək;
- Mesajları və rəyləri fərdiləşdirmək və mümkün olduqda yumor hissi əlavə etməklə onları daha canlı etmək;
- Müəllim ilə təhsilalanlar və təhsilalanlar arasında əlaqənin qurulması üçün müxtəlif kommunikasiya üsullarından istifadə etmək;
- İsti, mehriban və qonaqpərvər kollegial mühiti saxlamaq;
- Təhsilalanlar arasında etik münasibətlər və qrupla işləmək hissini yaratmaq və inkişaf etdimək;
- Onlayn ünsiyyət zamanı həssaslıq və empatiya göstərmək;

- Münaqişələri və anlaşılmazlıqları sülh yolu ilə həll etmək.

## *2.5. Bacarıqların inkişafı üçün platformalar*[6]

*Diaqram 3. Müəllimlərin bacarıqlarını inkişaf etdirməsi üçün platformalar*

| | | |
|---|---|---|
| **LearningSpace** *https://www.learningspacedigital.com/* | **Khan Academy** *https://www.khanacademy.org/* | **Coursera** *https://www.coursera.org/* |
| **Faculty Focus** *https://www.facultyfocus.com/* | **Udemy** *https://www.udemy.com/* | **SkillShare** *http://www.skillshare.com/* |
| **Video.edu.az** *https://video.edu.az/* | **edX** *https://www.edx.org/* | **Linkedin Learning** *https://www.linkedin.com/learning/* |

[6] Siz həmçinin Təhsil Nazirliyi və ona tabe qurumların, əlavə təhsil mərkəzlərinin müstəqil və ya müxtəlif layihələr çərçivəsində həyata keçirdiyi İKT bacarıqlarının artırılması, e-məzmun hazırlanması və s. barədə təlimlərdə iştirak edə bilərsiniz. Təlimlərdən xəbərdar olmaq üçün bu səhifələri izləyə bilərsiniz:
https://virtual.edu.az/
https://ict.edu.az/
https://www.arti.edu.az/az/
http://www.tipii.edu.az/az/
https://www.ite.az/

# 3. FƏNNİN MƏQSƏDİ, ÖYRƏNMƏ HƏDƏFLƏRİ VƏ NƏTİCƏLƏRİ

## *3.1. Fənnin məqsədi, öyrənmə hədəfləri və nəticələri arasında fərq*

Müəllim distant fənni tədris etmək üçün yetəri qədər bacarıqlara sahib olduğunu düşünürsə, artıq fənni planlamağa başlaya bilər. Ənənəvi təhsilalma formasından fərqli olmayaraq distant təhsildə də atılacaq ilk addımlardan biri fənnin məqsəd, öyrənmə hədəfləri və nəticələrini müəyyən etməkdir. Aşağıda hər üçü arasında fərqlər qeyd olunmuşdur[7]:

**Məqsəd** - müəllimin və ya müəssisənin perspektivindən fənnin ümumi məzmununu və təhsil proqramında istiqamətini müəyyən edən geniş ifadədir.
**Öyrənmə hədəfləri** - fənni tədris edərkən müəllimin nəyi əhatə etmək və ya öyrətmək istədiyini əks etdirən ifadələrdir. Məqsəddən daha spesifik olan hədəflər, müşahidə oluna və ya ölçülə bilən olmayıb daha çox müəllim mərkəzlidir.
**Öyrənmə nəticələri** - fənni uğurla bitirəndə tələbələrin nə edə biləcəklərini əks etdirən spesifik ifadələrdir. Öyrənmə nəticələri həm bütün fənn proqramına, həm həftələrə, həm də hər dərsə görə müəllim tərəfindən yaradıla bilər. Fənnin öyrənmə nəticələri tələbəmərkəzli olub onlar tərəfindən anlaşılan dildə qısa şəkildə tərtib olunmalıdır. Nəticələr fənnin və ya dərslərin tədris olunma müddətinə uyğun şəkildə nail oluna biləcək formada və ölçülə bilən olmalıdır.

[7] Çox zaman ədəbiyyatda bu terminlər bir-biri ilə birləşdirilərək eyni mənada işlənilir.

Diaqram 4-dən göründüyü kimi fənnin məqsədindən öyrənmə nəticələrinə irəlilədikcə ifadələr daha spesifikləşir.

> **Qeyd**: *Fənnin məqsədi və öyrənmə nəticələri çox zaman ali təhsil müəssisələri tərəfindən yaradılan təhsil proqramlarında yer alır. Müəllim ilk öncə tədris edəcəyi fənnin təhsil proqramında qeyd olunan məqsədi və öyrənmə nəticələri ilə tanış olmalı, onların üzərində işləməlidir.*

*Diaqram 4. Fənnin məqsədi, öyrənmə hədəfləri və nəticələri arasındakı əlaqə (DePaul Universiteti, n.d.- a)*




*Diaqram 5. Öyrənmə nəticələrinin müəllimlər və tələbələr üçün əhəmiyyəti*

**Öyrənmə nəticələri ilə müəllimlər:**

- tələbələrə onlardan gözləntiləri izah edir.
- uyğun tədris strategiyaları, materialları və qiymətləndirmə metodlarını planlayır.
- tələbələrin öyrənmə prosesini inkişaf etdirmək üçün mövcud fənn proqramına dəyişikliklər edir.
- fənnin öyrənmə nəticələrinin bütün təhsil proqramının geniş öyrənmə nəticələri ilə üst-üstə düşməsini qiymətləndirir.

**Öyrənmə nəticələri ilə tələbələr:**

- Fənni götürərkən nə əldə edəcəklərini fikirləşməyə kömək edir.
- Öz proqreslərini izləyə bilir.
- Necə qiymətləndiriləcəklərini bilməyə kömək edir.

Aşağıda fənnin məqsədi, öyrənmə hədəfləri və nəticələri ilə bağlı misal verilmişdir:

**Fənnin məqsədi** - *"Bu fənn tələbələri sosial sahədə tədqiqat ilə tanış edəcək."*
**Fənnin öyrənmə hədəfi** - *"Fənni tədris edərkən tədqiqat anlayışını, fəlsəfəsini, metodlarını, etikasını əhatə edəcəyik."*
**Fənnin öyrənmə nəticəsi** - *"Bu fənni götürməklə, tələbələr keyfiyyət və kəmiyyət metodlarını fərqləndirə biləcəklər." "Bu fənni götürməklə, tələbələr tədqiqat sualı formalaşdıra biləcəklər." "Bu fənni götürməklə, tələbələr tədqiqat apararkən etik davranış nümayiş etdirə biləcəklər."*

## 3.2. Öyrənmə nəticələrini yaratmaq

Öyrənmə nəticələrini tərtib etmək üçün müxtəlif taksonomiyalardan istifadə etmək mümkündür. Aşağıda əsas ikisi haqqında qısa məlumat verilmişdir:

– Benjamin Blum və tərəfdaşları tərəfindən 1956-cı ildə yaradılmış taksonomiyasının Anderson və Krathwohl (2001) tərəfindən adaptasiyası (Diaqram 6).

Diaqram 6. Adaptasiya olunan Blumun taksonomiyası (Koqnitiv proses)



Bu alət idraki bacarıqlarının[8] hierarxiq sıralamasını göstərir və tapşırıqların tərtib edilməsi, qiymətləndirilməsi və fənnin məqsədlərinin müəyyənləşdirmək üçün bir vasitədir. Blumun Taksonomiyası həm fənnin məqsədlərini, həm də fənn daxilində keçirilən mövzuları və tələbənin öyrənəcəyi mövzuları qiymətləndirmək və strukturlaşdırmaq üçün açar sözlər təqdim edir[9]. Cədvəl 3-dən istifadə etməklə müəllimlər öyrənmə nəticələrini yaradarkən lazım olan feilləri seçə bilərlər. Yüksək səviyyədə düşüncəni təşviq etmək üçün müəllimlərin üçüncü səviyyədən başlayaraq öyrənmə nəticələrini tərtib etməsi daha məqsədəuyğundur. Dərslər üçün daha spesifik öyrənmə nəticələri formalaşdırmaq üçün situasiya (kontekst) və dərəcə ilə bağlı sözlər artırmaq olar. Misal aşağıdakı kimi verilə bilər: *"Rəqabət mühitini analiz etmək üçün tələbə Porterin 5 gücündən 3-nü izah edə bilir."*

*Cədvəl 3. Blumun idrak səviyyələrinin xarakteristikası və öyrənmə nəticələrini müəyyən etmək üçün açar sözlər*

| **Blumun səviyyələri** | **Xarakteristikası** | **Açar sözlər** |
|---|---|---|
| Xatırlamaq | Tələbə uzunmüddətli yaddaşı əsasında öyrəndiyi məlumatı yada sala bilir və ya xatırlayır. | müəyyən etmək, ad vermək, təsvir etmək, uyğunlaşdırmaq, sitat gətirmək, xatırlamaq, müşahidə etmək, müəyyən etmək, etiketləmək, tanımaq |

[8] Digər bacarıqlar barədə məlumat almaq üçün aşağıdakı videolarlardan istifadə edə bilərsiniz: https://www.youtube.com/watch?v=y-4QuY4kJdw https://www.youtube.com/watch?v=3q0-dRpoUpc

[9] Fənni ingilis dilində tədris edəcəksinizsə, qeyd olunan keçiddə Arizona Dövlət Universiteti tərəfindən öyrənmə nəticəsi tərtibetmə alətindən istifadə edə bilərsiniz: https://teachonline.asu.edu/objectives-builder/#axzz2mvqFP6ft

*Cədvəl 3-n davamı*

| | | |
|---|---|---|
| Anlamaq | Tələbə şifahi, yazılı və ya qrafik kommunikasiyaya daxil olmaqla müəllimin təlimatlarını və onların mənasını anlayır. | təsvir etmək, izah etmək, ifadə etmək, təkrar etmək, nümunələr vermək, ümumiləşdirmək, şərh etmək, müzakirə etmək, tərcümə etmək, müəyyən etmək |
| Tətbiq etmək | Verilmiş situasiyada tələbə hər hansı bir proseduru tətbiq edə bilir. | proqnozlaşdırmaq, tətbiq etmək, həll etmək, təsvir etmək, istifadə etmək, nümayiş etdirmək, modelləşdirmək, yerinə yetirmək, təqdim etmək |
| Təhlil etmək | Tələbə materialı hissələrə bölə və bu hissələrin bir-biri və ümumi struktur və məqsəd ilə əlaqəsini müəyyən edə bilir. | analiz etmək, təsnif etmək, təhlil etmək, müqayisə etmək, qarşılaşdırmaq, yoxlamaq, tənqid etmək, tədqiq etmək, eksperiment aparmaq, ayırmaq, test etmək, fərqləndirmək |
| Dəyərləndirmək | Tələbə kriteriyalar və standartlar əsasında mühakimə edə bilir. | seçmək, əlaqələndirmək, müəyyən etmək, mühakimə etmək, qiymətləndirmək, əsaslandırmaq, tövsiyə etmək, sıralamaq, inandırmaq, ölçmək, qərar vermək, rəy bildirmək, prioritetləşdirmək |
| Yaratmaq | Tələbə bir neçə elementi birləşdirərək hekayə yaza bilir və ya orjinal məhsul yarada bilir. | formalaşdırmaq, qurmaq, icad etmək, dizayn etmək, yaratmaq, düzəltmək, tərtib etmək, dəyişdirmək, inkişaf etdirmək, təklif etmək, hazırlamaq, inteqrasiya etmək, idarə etmək |

– L. Dee Finkin "Əhəmiyyətli öyrənmə" adlı taksonomiyası. 2003-cü ildə Fink tərəfindən irəli sürülən taksonomiya əhəmiyyətli öyrənmə mühitinin yaranması üçün tələbələrin bu prosesdə iştirakını və enerji sərf eləmələrini vurğulayır. Belə ki, bu zaman fənn bitdikdən sonra da tələbələrin əldə etdiyi biliklər və bacarıqlar onların həyatında uzunmüddətli və əhəmiyyətli dəyişikliklərə gətirib çıxardacaqdır. Blumdan fərqli olaraq hierarxiya

əvəzinə cədvəl 4-də qeyd olunan hər bir komponent arasında qarşılıqlı əlaqə mövcuddur.

*Cədvəl 4. Finkin əhəmiyyətli öyrənmə nəticələri üçün əsas komponentlər, onların izahı və açar sözlər*

| Növlər | İzahı | Açar sözlər |
|---|---|---|
| Əsas bilik | Məlumatı və ideyaları anlamaq və xatırlamaq | Xatırlamaq, anlamaq, müəyyən etmək |
| Tətbiq | Tənqidi, yaradıcı və praktiki düşüncə bacarıqlarını tətbiq etmək | İstifadə etmək, tənqid etmək, idarə etmək, həll etmək, qiymətləndirmək, mühakimə etmək, xəyal etmək, analiz etmək, hesablamaq, yaratmaq, əlaqələndirmək, qərar qəbul etmək |
| İnteqrasiya | İnformasiya, ideyalar, perspektivlər və yaşanmış təcrübələr arasında əlaqələri tanımaq | Əlaqələndirmək, müqayisə etmək, inteqrasiya etmək, ...arasında qarşılıqlı əlaqəni müəyyən etmək, ...arasında oxşarlıqları müəyyən etmək |
| İnsan tərəfi | Özü və digərləri barədə öyrənmək | Özünü ... kimi görmək, başqaları ilə ... haqqında qarşılıqlı əlaqəyə keçmək, ...olmaq üçün qərar vermək, ...kimi hallarda başqalarını başa düşmək |
| Qayğı | Yeni hislər, maraqlar və dəyərlər yaratmaq | ...barədə həyacanlanmaq, ...üçün hazır olmaq, ... ilə daha çox maraqlanmaq, ... dəyərləndirmək |
| Necə öyrənməyi öyrənmək | Özünü istiqamətləndirən və ömürboyu öyrənən tələbə olmağı öyrənmək | ... effektiv şəkildə oxumaq, öyrənmək üçün gündəlik yaratmaq, ...barədə məlumatın mənbəyini müəyyən etmək, ...barədə bilik formalaşdırmaq, yararlı suallar formalaşdırmaq, ...üçün öyrənmə planı yaratmaq |

Əlavə 2-də öyrənmə nəticələrini tərtib edərkən üzərində işləmək üçün iş vərəqi verilmişdir.

# 4. DİSTANT FƏNNİN DİZAYNI

## *4.1. Fənnin dizaynı*

Fənnin məqsədi, öyrənmə hədəfləri və nəticələri müəyyənləşdiriləndən sonra müəllim fənnin davamını dizayn etmək üçün müxtəlif çərçivələrdən istifadə edə bilər. Fənni dizayn etmək üçün aşağıda "Geriyə doğru dizayn" (Wiggins və McTighe, 2005) və "İnteqrasiya olunmuş fənn dizaynı" (Fink, 2003) adlı iki çərçivə[10] təqdim olunmuşdur:

**Geriyə doğru dizayn** - Wiggins və McTighe tərəfindən 2005-ci ildə yaradılan bu dizayn tələbəmərkəzlidir. Belə ki, müəllim ənənəvi modeldə olan kimi tədris edəcəyi məzmun əvəzinə (Diaqram 7) öyrənmə hədəfləri və nəticələrinə fokuslanaraq fənni dizayn edir.

Diaqram 6. Ənənəvi kurs dizayn modeli




Mənbə: DePaul Universiteti (n.d.-b)

Ənənəvi çərçivələrdən fərqli olaraq bu zaman fəaliyyətlər və qiymətləndirməyə qərar vermədən müəllim nə keçəcəyinə qərar vermir. Bir sözlə, geriyə doğru dizayn vasitəsilə öyrənmə nəticələri, dərsdə müvafiq öyrənmə və qiymətləndirmə fəaliyyətləri arasında uyğunluq yaranır. Sözügedən dizayn prosesi aşağıdakı 3 məqamdan ibarətdir:

1. *Arzuolunan nəticələri müəyyənləşdirmək* - bunun üçün müəllim tərəfindən fənnin məqsədi, öyrənmə hədəfləri

[10] Hər iki çərçivənin üzərində kontekstə uyğun dəyişikliklər edilmişdir.

və xüsusilə tələbələr üçün öyrənmə nəticələri müəyyən olunmalıdır.

2. *Qəbul olunacaq sübutu qərarlaşdırmaq* - bunun üçün öyrənmə nəticələrinə çatmağı hədəfləyən və göstərən qiymətləndirmə fəaliyyətləri seçilməlidir.
3. *Öyrənmə təcrübəsi və tədrisi planlamaq* - qiymətləndirmə fəaliyyətlərində təhsilalanların nəticələrinin yüksək olması məqsədilə öyrənmə fəaliyyətləri dizayn olunmalıdır.

Əlavə 3-də yuxarıda qeyd olunan 3 komponent üçün müvafiq suallar və iş vərəqi yerləşdirilmişdir.

**İnteqrasiya olunmuş fənn dizaynı** – L. Dee Fink tərəfindən 2003-cü ildə müəllimlərin fənnin məqsədi, öyrənmə və qiymətləndirmə fəaliyyətlərinə tələbələrin situasional faktorlarını inteqrasiya etmələri və "Əhəmiyyətli öyrənmə"yə çatmaq üçün yaradılmışdır.

12 prosesdən ibarət olan dizaynın mərhələləri aşağıda verilmişdir[11]:

**İlkin mərhələ: Güclü ilkin komponentləri qurmaq**

1. *Önəmli situasional faktorları müəyyən etmək*;

Fənni tərtib edərkən ilk addım vəziyyəti diqqətlə müəyyənləşdirməkdir, yəni tədris aparılacaq kontekst haqqında məlum olan məlumatları nəzərdən keçirmək və bəzi hallarda əlavə məlumat toplamaq da bura daxil ola bilər. Fənn ilə bağlı ilkin

[11] Qeyd etmək lazımdır ki, hər bir mərhələ bitməlidir ki, növbəti mərhələyə keçilsin. Çünki mərhələlər bir-biri ilə bilavasitə əlaqəlidir.

qərarlar vermək üçün vacib olan situasional faktorları müəyyənləşdirmək üçün Əlavə 4-də verilən iş vərəqindən istifadə edə bilərsiniz.[12]

**2.** *Öyrənmə məqsədini, hədəflərini, nəticələrini müəyyən etmək;*

Situasional faktorları nəzərdən keçirdikdən sonra təhsilalanların tədris olunan fəndən əldə edəcəkləri bilik, bacarıq və davranışlar dizayn prosesində növbəti addımdır. Bu məqamda müəllimlərin özlərinə aşağıdakı sualları vermələri tövsiyə olunur:

*"Fənnin bitməsindən 2-3 il sonra bu fənnin tələbələrə təsirinin nə olmasını istərdim? Bu fəndə iştirak edən tələbələr iştirak etməyən tələbələrdən nə ilə fərqləndirilə bilər?"*

Əlavə 5-ə öyrənmə məqsədlərini müəyyən etmək məqsədilə sizə yol göstərəcək suallarla tanış olmaq üçün baxa bilərsiniz. Öyrənmə hədəfləri və nəticələrini yazmaq üçün ətraflı məlumat fəsil 3-də verilmişdir.

**3.** *Müvafiq rəy və qiymətləndirmə prosedurlarını formalaşdırmaq;*

Bu addımda əsas məqsəd təhsilalanların tədris olunan fəndə keçirilən mövzuları anlamasını müəyyən etmək deyil. Qiymətləndirmə audit xarakteri daşımayıb, öyrətmə məqsədi güdür. Belə ki, təhsilalanların öyrənmə prosesinin keyfiyyətini artıran bu tip maarifləndirici qiymətləndirmənin aşağıdakı 4 əsas komponenti var:

- İrəliyə doğru qiymətləndirmə - real həyatda baş verən məsələləri, problemləri, qərarları canlandıran tapşırıqlar,

[12] Bu addım barədə daha ətraflı məlumat üçün təhsilalanları tanıma bölməsinə keçid ala bilərsiniz.

suallar vasitəsilə həyata keçirilir. Tapşırıqları müəyyən edərkən müəllim təhsilalanların öyrəndikləri bilikləri hansı situasiyada tətbiq/istifadə edə biləcəkləri barədə düşünməlidir.

- Tələbənin özünü qiymətləndirməsi - gələcəkdə də tələbələrə lazım olacağından, tədris prosesi üçün onlara özlərini qiymətləndirmək üçün imkanın verilməsi əhəmiyyət kəsb edir.
- Fənnin kriteriya və standartları - müəllimlər təhsilalanların tapşırıqlarını və imtahanlarını qiymətləndirmək üçün kriteriya və standartları əvvəlcədən aydın şəkildə izah etməlidirlər.
- Tələbələrə rəy bildirmək - tələbələrə keyfiyyətli rəy vermək üçün müəllim aşağıdakıları nəzərə ala bilər:

Tezlik: Tələbələrə gündəlik, həftəlik və ya mümkün qədər tez-tez rəy verin.
Dərhal: Tələbələrə mümkün qədər tez bir zamanda rəy verin.
Fərqləndirici: Pis, qəbul ola bilən, fərqlənən işlər arasında fərqi aydın şəkildə bildirin.
İstənilən: Rəy bildirən zamanı empatik olun.

4. *Effektiv tədris və öyrənmə fəaliyyətlərini seçmək;*

Bu addımda fənnin tədrisi zamanı tələbələrin aktiv şəkildə öyrənməsini təmin etmək üçün müxtəlif fəaliyyətlərin seçimi baş tutmalıdır. Aktiv şəkildə öyrənmək, mühazirəyə qulaq asmaq, material oxumaq, data üçün məlumatı əldə etmək ilə yanaşı, təhsilalanın müşahidə və tətbiq etməklə nə öyrəndiyini əks etdirən təcrübədir. Aktiv şəkildə öyrənən tələbə özü və digərləri ilə dialoqa daxil olur. Ətraflı məlumat üçün fəsil 7-yə baxa bilərsiniz.

*5. İlkin komponentlərin bir-birinə inteqrasiya etdiyindən əmin olmaq.*

Bu mərhələyə qədər fənnin dizaynı üçün əsas ilkin komponentlər artıq yaradılmış olur. Bu addımda isə onların bir-birinə nə dərəcədə uyğun olduqlarını müəyyən etmək lazımdır. Bunun üçün Əlavə 6-dakı suallardan və Əlavə 7-dəki cədvəldən 2-4-cü addımları bir-biri ilə inteqrasiya etmək üçün istifadə edə bilərsiniz.

**Orta mərhələ: Bütün komponentləri vahid şəkildə birləşdirmək**

*6. Fənn üçün tematik struktur qurmaq;*

Fənnin strukturunu yaratmaq üçün aşağıdakıları etmək lazımdır:

- Fənn ilə bağlı əsas anlayış və konseptləri müəyyən edərək semestri 4-7 hissəyə bölmək;
- Müəyyən edilən anlayış və konseptləri təhsilalanlara təqdim etmək üçün uyğun ardıcıllıqla düzmək və hər biri üçün neçə həftə və ya dərs sessiyaları salmağa qərar vermək;
- Hər hissəni təhsilalanlara təqdim etmək və yeni mövzuya keçdikcə mövzunun artan mürəkkəbliyini əks etdirəcək tapşırıqlar müəyyən etmək.

*7. Tədris strategiyasına qərar vermək və ya yaratmaq;*

Tədris strategiyası müəyyən ardıcıllıqla təşkil edilmiş öyrənmə fəaliyyətlərinin məcmusudur və mövzuları ardıcıllıqla keçdikcə tələbələrin öyrənmə istəyi artır. Aşağıdakı fəaliyyətlərlə daha aydın anlamaq olar.

- Təhsilalanları sonrakı mövzuya hazırlamaq;

- Təhsilalanlara tədris etmək istədiyiniz mövzuları tətbiq etmək üçün imkan yaratmaq və anında rəy bildirmək;
- Onların performansını qiymətləndirmək;
- Onlara öyrəndikləri haqqında düşünməyə imkan tanımaq.

***8.** Öyrənmə fəaliyyətlərinin sxemini qurmaq üçün fənnin strukturu və tədris strategiyasını inteqrasiya etmək.*

Bu mərhələdə müəllim fənnin strukturunu və tədris strategiyasını bir-birilə inteqrasiya etməlidir. Həm əvvəlki addımda tədris strategiyasını müəyyən etmək, həm də ümumi sxemi yaratmaq üçün Əlavə 8-də olan iş vərəqindən istifadə edə bilərsiniz.

**Son mərhələ: Digər önəmli işləri bitirmək**

***9.** Qiymətləndirmə sistemi qurmaq;*

Bu mərhələdə müəllim qiymət vermək üçün istifadə edəcəyi fəaliyyətləri müəyyənləşdirməlidir. Təhsilalanların öyrəndikləri bilik və bacarıqları yoxlamaq məqsədi güdən bu qiymətləndirmə fəaliyyətlərinin yekun qiymətə təsiri onların əhəmiyyətinə görə təyin edilməlidir. Hər bir fəaliyyətin faiz payına müəllim çalışdığı təhsil müəssisəsinin müvafiq qiymətləndirmə siyasətini nəzərə almaqla tək və ya təhsilalanların rəyi əsasında da qərar verə bilər.

***10.** Mümkün problemi həll etmək;*

Bu mərhələdə müəllim tamamlamaq üzrə olduğu fənnin planlaşdırma prosesini bir daha yoxlamalıdır. Yarana biləcək mümkün problemlər müəllim tərəfindən nəzərdən keçirilməli və həll yolları tapılmalıdır. Məsələn, müəllim özünə aşağıdakı sualları ünvanlaya bilər:

-Tələbələrin dərsdənkənar tapşırıqlarını yerinə yetirməyə vaxtları olacaqmı?

-Tələbələr lazımi resursları/materialları kitabxanadan əldə edə biləcəklərmi?

***11.*** *Fənn proqramını yazmaq;*

Son olaraq müəllim sillabus tərtib etməlidir. Müəllim bu zaman çalışdığı müəssisənin nümunəsi üzərində işləsə də, öz əlavələrini etməlidir. Sillabus tərtibi ilə bağlı ətraflı məlumatı 8-ci fəsildə tapa bilərsiniz.

**12.** *Fənnin və tədris prosesinin qiymətləndirilməsini planlamaq.*

Fənnin və tədris prosesinin təkmilləşdirilməsi üçün fənnin və müəllimin qiymətləndirilməsini planlaşdırmaq çox vacibdir. Bununla bağlı müəllim aşağıdakı mənbələrdən məlumat əldə edə bilər:

- Semestr ərzində və sonunda tələbələr tərəfindən toplanılan rəylər;
- Dərslərin video/audio yazısı;
- Tələbə müsahibələri və ya sorğuları;
- Müəssisənin keyfiyyət təminatından məsul şəxsləri və mərkəzi tərəfindən rəylər;
- Qiymətləndirmə fəaliyyətlərinin cavabları.

Müəllim fənnin məqsədi, öyrənmə hədəfləri və nəticələrinə çatmağa nail olmasını, keçirdiyi öyrənmə fəaliyyətlərinin effektivliyini, tələbələr ilə effektiv əlavə qurmasını təmin etdiyindən əmin olmalıdır.

# 5. TƏHSİLALANI TANIMA

Distant təhsildə tələbəmərkəzli tədris prosesini təmin etmək üçün hər bir təhsilalanın fərdi ehtiyaclarını müəyyən etmək vacibdir. Ehtiyacların müəyyənləşdirilməsi sorğusu müəllimə fənnin dizaynını, məzmununu, tədrisini hər bir təhsilalanın profilinə uyğunlaşdırmağa və dərsləri başdan sona aparmaq üçün hansı fasilitasiya yollarından istifadə etməyə qərar verməsinə kömək edəcəkdir. Sorğudan əldə edilən cavablar əsasında hətta ilkin müəyyən edilən öyrənmə hədəflərini mövcud bilik və bacarıq səviyyəsinə uyğun adaptasiya etməyə ehtiyac yarana bilər[13]. Ehtiyacları müəyyənləşdirmək üçün sorğu suallarını hazırlayarkən müəllim ilk öncə özünə bu sualı ünvanlamalıdır:
*"Nəyi, necə, hansı texnologiyadan istifadə etməklə tədris etməyim və bu prosesə haradan başlayacağıma qərar verməyim üçün tələbələrim haqqında nə bilməyimə ehtiyac vardır?"* (Dupin-Bryant və DuCharme-Hansen, 2005).

Aşağıda müəllimin təhsilalanları tanıması üçün tövsiyə olunan suallar göstərilmişdir (ətraflı məlumat üçün cədvəl 5-ə baxın):

1. Fənnimi götürəcək təhsilanlar kimlərdir?
2. Fənnimi götürəcək təhsilalanlar indiyədək hansı bilik və bacarıqları əldə ediblər?

[13] Nəzərə alın ki, ali təhsildə təhsilalanlar barədə məlumatı müəllim dərsə çox az vaxt qalmış öyrənə bilər. Bu səbəbdən dərslər başlasa da, yenə də müvafiq dəyişikliklərin edilməsi üçün bu kimi sorğuların edilməsi vacibdir.

**3.** Fənnimi tədris etmək üçün müxtəlif texnoloji avadanlıqlardan və alətlərdən istifadə təhsilalanlara necə təsir göstərir?

**4.** Fənnimi götürəcək təhsilalanlar hansı ölkədən gəlirlər?

*Cədvəl 5. Təhsilalanların ehtiyaclarını müəyyənləşdirmək üçün nəzərə alına bilinəcək faktorlar və onların əhəmiyyəti*[14]

<table>
<tr><th>FAKTORLAR</th><th>BU FAKTORLAR NİYƏ VACİBDİR?</th></tr>
<tr><td colspan="2">Təhsilalanların xarakteristikası:</td></tr>
<tr><td>Mənim tədris edəcəyim fənni götürmək üçün təhsilalanları nə motivasiya edir?</td><td rowspan="4">Təhsilalanların özünəxas xarakteristikalarını anlamaq onların motivasiyasını qaldıracaq şəkildə fənni dizayn etməyə kömək edəcəkdir. Müəllim tərəfindən müəyyən olunmuş fənnin məqsədi ilə təhsilalanların fənni götürməkdə məqsədinin üst-üstə düşməsi nəzərə alınmalıdır. Bu hal tələbələrin öyrənmə hədəfləri/təlim nəticələrinin yaradılmasında rolunu təmin edəcəkdir. Peşəkar təcrübənin olması və ya olmaması hər bir təhsilalan üçün daha spesifik öyrənmə hədəfləri/təlim nəticələri yaratmağa imkan yaradacaqdır.</td></tr>
<tr><td>Təhsilalanların təhsil proqramını bitirməsi üçün mənim tədris edəcəyim fənni götürmələri məcburidir, yoxsa seçmədir?</td></tr>
<tr><td>Təhsilalanın mənim tədris edəcəyim fəndən gözləntiləri nələrdir?</td></tr>
<tr><td>Mənim fənnimi götürəcək təhsilalanların hər hansı bir peşəkar təcrübəsi varmı?</td></tr>
</table>

[14] FAO (2021), Becker və digərləri (2014), Dupin-Bryant və DuCharme-Hansen (2005)

*Cədvəl 6-in davamı*

<table>
<tr><th colspan="2">Təhsilalanların əvvəlki biliyi və bacarıqları:</th></tr>
<tr><td>Təhsilalanlar mənim tədris edəcəyim fənnin mövzuları ilə tanışdırlarmı?</td><td rowspan="3">Bu faktor xüsusilə öyrənmə hədəflərinin/təlim nəticələrinin ehtiyaclara uyğun adaptasiya edilməsi üçün əhəmiyyətlidir. Bu suallara cavab tapmaqla artıq təhsilalanın bilikli olduğu mövzuları tədris etməklə vaxt itirməyin və ya onların yetərli baza biliyi olmadan daha mürəkkəb mövzuları tədris etməklə öyrənmə prosesini çətinləşdirməyin müəllim tərəfindən qarşısı alınacaqdır. Təhsilalanların texniki bacarıqları barədə məlumat fənnin tədrisi zamanı istifadə edilə biləcək onlayn resursların, distant kommunikasiya vasitələrinin və digər onlayn məşğələlərin/fəaliyyətlərin mürəkkəbliyini müəyyən etməyə kömək edəcəkdir.</td></tr>
<tr><td>Təhsilalanlar bu fənni götürmək üçün tələb etdiyim prerekvizitləri tamamlayıblarmı?</td></tr>
<tr><td>Tapşırıqları yerinə yetirmək üçün təhsilalanların texniki/texnoloji bacarıqları varmı?</td></tr>
<tr><th colspan="2">Texnologiyadan istifadə etmək imkanı:</th></tr>
<tr><td>Elektronik və veb alətlərindən istifadə etmək təhsilalanlara necə təsir edir?</td><td rowspan="4">Məsafədən tədris prosesində iştirak etmək və uğurla bu prosesi bitirmək üçün təhsilalanların texniki avadanlıqlara və alətlərə əlçatanlığının olması vacibdir.<br>Müxtəlif cihazlarda istifadə edilə bilinəcək məzmunun və materialların müəllim tərəfindən yaradılması texnologiyadan istifadə imkanı limitli olan təhsilalanların tədris prosesindən kənar qalmaması üçün əhəmiyyət kəsb edir.</td></tr>
<tr><td>Fənnimi tədris edərkən elektron yerləşdirəcəyim materiallara təhsilalanlar necə daxil olacaqlar (məsələn, kompüterlə, telefonla, və s. və ya evdən, işdən və s. kimi)?</td></tr>
<tr><td>Bütün tapşırıqları yerinə yetirmək üçün təhsilalanların ehtiyac duyulan alətlərdən istifadə etmək imkanı varmı (məsələn, video kamera, proqram təminatı və s. kimi)?</td></tr>
<tr><td>Mənim bütün materiallarım universal olaraq istifadə oluna bilinirmi (məsələn, telefonda istifadə imkanı və s. kimi)?</td></tr>
</table>

*Cədvəl 7-in sonu*

<table>
<tr><th colspan="2">Multikultural məsələlər:</th></tr>
<tr><td>İstifadə edəcəyim misallar hər hansı mədəni (kultural) bilik tələb edirmi?</td><td rowspan="3">Təhsilalan ilə müəllim arasında kommunikasiyanın düzgün qurulması və məlumat mübadiləsini korlayacaq və ya ona mənfi təsir göstərəcək kultural faktorları nəzərə almaq üçün vacibdir.</td></tr>
<tr><td>Təhsilalanların hər hansı bir dil baryeraları varmı?</td></tr>
<tr><td>Yaratdığım məzmun kultural olaraq həssasdırmı?</td></tr>
<tr><th colspan="2">Digər məsələlər:</th></tr>
<tr><td>Təhsilalanlar içərisində sağlamlıq imkanları məhdud tələbələr varmı?</td><td>İnklüziv distant təhsil üçün bu faktorun müəyyən olunması vacibdir. Nəticə etibarı ilə müəllim bir-birindən fərqli təhsilalanların ehtiyaclarını müəyyən edərək onlara uyğun materiallar və texnoloji alətlər seçə bilər.</td></tr>
</table>

Ehtiyacların müəyyənləşdirilməsi üçün sorğunun məqsədini təyin etdikdən sonra sorğunu hansı metodlardan (kəmiyyət, keyfiyyət) istifadə etməklə aparacağına müəllim qərar verməlidir. Kəmiyyət metodunu seçən müəllimlər sorğu anketlərini aşağıdakı alətlərdən istifadə etməklə yarada bilərlər:

- SurveyMonkey - https://www.surveymonkey.com/
- Google Forms - https://www.google.com/forms/about/
- Outlook Forms - https://www.microsoft.com/en-us/microsoft-365/online-surveys-polls-quizzes

Əlavə 9-da təhsilalanların onlayn öyrənməyə hazırlıqları ilə bağlı özlərini qiymətləndirmələri üçün nümunə sorğu yerləşdirilmişdir.

# 6. QİYMƏTLƏNDİRMƏ

## *6.1. Qiymətləndirmə növləri və prosesi*

Onlayn tədris olunan fənnin qiymətləndirilməsində nəzərə alınmalı olan ilkin komponent fənnin **gözləntiləridir** və bunlar fənnin dizaynında tərtib olunan məqsəd, öyrənmə hədəfləri və nəticələri ilə uyğun olmalıdır.

Qiymətləndirmə tədris prosesi boyunca təhsilalanların biliyinin, bacarıqlarının, davranışlarının və ya fikirlərinin qeydə alınması prosesidir. Qiymətləndirmə və dəyərləndirmə bir-birindən fərqli iki anlayışdır. *Qiymətləndirmə* öyrənmə hədəfləri və nəticələrinə çatmağın monitor olunması üçün müvafiq məlumatın əldə edilməsi prosesidir. Bir sözlə, tələbələrin nəyi və necə öyrəndiklərini ölçməyə kömək edir. *Dəyərləndirmə* isə fənnin əvvəldə qoyulan öyrənmə hədəflərinə və nəticələrinə çatması ilə bağlı mühakimə edilmə prosesidir. Qiymətləndirmə vasitəsilə toplanan məlumat dəyərləndirmə prosesində qərar qəbul etmək üçün istifadə olunur (Becker və digərləri, 2014).

Qiymətləndirmədən əldə edilən məlumatın istifadə məqsə-dindən asılı olaraq iki cür qiymətləndirmə növü vardır (Cədvəl 6).

Ümumiyyətlə, formativ və summativ qiymətləndirməni bir-birindən hər hansı bir tapşırığa baxmaqla ayırmaq çətindir. Ancaq həmin tapşırığın məqsədini və qiymətləndirmə vasitəsilə əldə edilən məlumatla nə ediləcəyini biləndən sonra növü müəyyənləşdirmək mümkündür (Brookhart, 2004; Fisher və Bandy, 2019). Lakin məqsədindən asılı olmayaraq, yaxşı tələbə hər bir növ qiymətləndirmədən verilən rəy əsasında özünü inkişaf etdirə bilər. Ətraflı rəyin verilməsi xüsusən formativ qiymətləndirmə üçün əsasdır.

*Cədvəl 8. Qiymətləndirmə növləri*

| Qiymətləndirmənin növləri | İzah |
|---|---|
| **Formativ** | Bu qiymətləndirmə növü öyrənmə prosesinin effektivliyini ölçmək üçün istifadə olunur. Əksər hallarda tələbələr bu növ fəaliyyətlərdən yekun qiymət (bal) əldə etmədiyindən onlar hər hansı imtahandan kəsilmək qorxusu olmadan zəif tərəflərini müəyyən edir və üzərində işləmək imkanı əldə edir. Bu cür qiymətləndirmədə əsas məqsəd qiymət vermək əvəzinə tələbələrin öz üzərində işləməsi üçün rəy verməkdən ibarətdir. |
| **Summativ** | Bu cür qiymətləndirmə normalda fənnin sonunda baş tutaraq öyrənmə hədəfləri və nəticələrinə çatmağı müəyyənləşdirməyə kömək edir. |

Qiymətləndirmə nəticəsinin uğurlu olması üçün prosesi təşkil edərkən xüsusi aydın planın mövcud olmasına ehtiyac vardır (Walvoord, 2010). Qiymətləndirməni təşkil etmək üçün aşağıdakı planlaşdırma prosesini izləyə bilərsiniz (Fisher və Bandy, 2019):

1. *Öyrənmə nəticələrini müəyyən etmək*- Dərs və fənnin müvafiq öyrənmə nəticələrini qərarlaşdırmaq ona uyğun qiymətləndirmə prosesinin təşkil olunması üçün əsas rol oynayır.
2. *Qiymətləndirmə metodlarını müəyyən etmək*- Öyrənmə nəticələrinə qərarlaşdıqdan sonra onlara tələbələrin çatmasını göstərəcək ən uyğun tapşırığı/metodu seçməyə qərar verilməlidir.
3. *Qiymətləndirmə fəaliyyətini yaratmaq*- Tələbələrin dərslərdən öyrəndiyinin əsaslı və etibarlı sübutunu və onların effektiv şəkildə hazırlaşmasını təmin edəcək

aydın formatda, performans meyarları müəyyən edilmiş tapşırıqlar yaradılmalıdır.

4. *Qiymətləndirməni fənnin digər elementləri ilə inteqrasiya etmək*- Həm inteqrasiya olunmuş, həm də geriyə doğru dizayn modellərində (Fəsil 4-ə baxın.) əsas qiymətləndirmə metodlarının seçilməsi digər bilik və bacarıqların artıran və summativ qiymətləndirməyə hazırlayan tapşırıq və öyrənmə fəaliyyətlərinə qərarlaşmaq üçün əsas rol oynayır.
5. *Qiymətləndirmə barədə kommunikasiya etmək*- Dərslərə başlayarkən tapşırıqlar və performans meyarları haqqında məlumatı tələbələrə ötürmək vacibdir. Sillabusda rubrikalar daxil müəyyən qədər məlumatlar verilsə də, müəllim tələbələrin suallarını cavablamaq və onların hazırlaşmasına kömək etmək üçün tədris boyunca bir sıra kommunikasiyalar ötürə bilər.
6. *Qiymətləndirməni keçirtmək*- Əvvəldən müəyyən olunmuş formada (təhvilvermə qaydaları, imtahan haqqında məlumat və müvafiq qaydalar və s.) qiymətləndirmə prosesi həyata keçirilməlidir. Prosesin şəffaf keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.
7. *Tapşırıqların nəticələrini/cavablarını analiz etmək*- Müəllim müxtəlif cür tapşırıqları qiymətləndirərkən performans meyarlarından istifadə etməlidir. Həmçinin plagiat və ya köçürmə hallarının yaşanmadığı xüsusi proqram təminatlarından əlavə olaraq müəllim tərəfindən nəzərdən keçirilərək müəyyən olunmalıdır.
8. *Nəticələri kommunikasiya etmək*- Müəllim müəyyən olunmuş vaxt çərçivəsində tələbələrin özlərini inkişaf

etdirməsi üçün rəylərini və qiymətləri (əgər tapşırıq qiymət əsaslıdırsa) onlara bildirməlidir.

9. *Düşünmək və düzəlişlər etmək*- Qiymətləndirmə bitdikdən sonra müəllim fənnin digər hissəsi üçün öyrənmə fəaliyyətlərinə və planlara müvafiq düzəlişlər edə bilər və növbəti dəfə fənni tədris edərkən tapşırıqları dəyişə bilər.

## *6.2. Onlayn nəzarət olunan imtahanlar və onlara alternativlər*

Pandemiya səbəbilə məsafədən təhsil imtahanların da onlayn formaya keçirilməsi ilə nəticələndiyindən, OECD (2020) tərəfindən bu periodda onlayn imtahanları təşkil edərkən müxtəlif dünya ölkələrinin üzləşdikləri çətinliklər aşağıdakı kimi ümumiləşdirilmişdir:

- Tələbələr tərəfindən akademik dürüstlüyün pozulması halları
- Praktik biliyin və bacarıqların qiymətləndirilməsində problemlər
- Ədalətliliyin təmin edilməsi
- Texniki qüsurların baş vermə riski

Akademik şəffaflığı qorumaq üçün məsafədən təhsil zamanı onlayn nəzarət olunan imtahanlardan istifadə olunur. Bu növ imtahan vaxtı təhsilalan imtahan ərzində müşahidə olunur. Müxtəlif texnoloji alətlərdən istifadə etməklə tələbələrin şəxsi keyfiyyətləri imtahan başlamazdan əvvəl müəyyən edilə, digər tətbiqetmələrə daxil olma imkanını bağlamaqla və videokameralar və mikrofonları çəkiliş üçün istifadə etməklə köçürmə

halının qarşısı alına bilər. **“Respondus Lockdown Browser”** onlayn imtahanlar zamanı ən çox istifadə olunan brauzerlərdən biridir. Bu brauzerdən istifadə zamanı istifadəçilərin başqa veb səhifələrə girişi limitlənir, imtahan zamanı tələbənin kimliyi müəyyən edilir və imtahan verənlər veb kamera vasitəsi ilə izlənilir. Süni intellekt vasitəsi ilə onlayn imtahan zamanı imtahan verənlər müşahidə olunur və hər hansı mənfi hallar baş verdikdə sistem tərəfindən imtahan verən müəllimə şikayət olunur.[15] Lakin onlayn nəzarət olunan imtahanlar ilə bağlı aşağıdakı problemlər hələ də mövcuddur (ibid.):

- İnformasiya təhlükəsizliyi və verilən məlumatların qorunması - istifadə olunan texnologiyalar audio və video yazı qeyd etdiyindən müəyyən informasiya təhlükəsizliyi problemlərinə gətirib çıxara bilər.
- Akademik pozuntular - tələbələr müxtəlif cihazlardan istifadə edərək və ya kənar şəxslər ilə əlaqəyə keçərək yenə də akademik pozuntu halları yarada bilərlər.
- Texniki təchizat - bu cür proqram təminatları effektiv və stabil işləyən İT sistemləri, serverləri, tələbələr üçün kompüterlər və internet bağlantısı tələb edir.
- Tələbələrə təsiri - texniki qüsurlara görə kəsiləcəklərini düşünən tələbələrə bu cür imtahan narahatlıq yaradır.

Bu problemləri nəzərə alaraq onlayn nəzarət olunan imtahanlara aşağıdakı alternativ qiymətləndirmə fəaliyyətləri təşkil oluna bilər:

[15] E-qiymətləndirmə ilə bağlı Horizon 2020 tərəfindən maliyyələşdirilən TeSLA layihəsi ilə tanış olmağınız tövsiyə olunur: https://tesla-project-eu.azurewebsites.net/

1. **Evdən imtahan** - Tələbələr verilən müddət ərzində (məsələn, 24 saat) müəllim tərəfindən verilən sualları cavablayır (çox zaman esse şəklində) və cavabları onlayn göndərir. Sualları cavablamaq məntiqi düşüncə və analiz kimi fəaliyyətləri tələb etməli, əzbərləmə üzərində qurulmamalıdır. Tələbələrin tədris resurslarına daxilolma imkanı olmalıdır ki, verilən sualları mövcud ədəbiyyat ilə dəstəkləyərək cavablaya bilsinlər.
2. **"In tray box exercices"** - Tələbələrə imtahandan əvvəl virtual sənəd qovluğu və digər resurslar nəzərdən keçirilməsi üçün təqdim edilir. Bu resurslar ilə tanış olmaları və qeydlər aparmaları üçün kifayət qədər vaxtları olur. Sual isə imtahan zamanı müəyyən müddət çərçivəsində hər hansı bir situasiyaya cavab vermələri üçün verilir. Atdıqları addımları və tövsiyələri əsaslandırmaq üçün isə əvvəldən təqdim olunmuş sənədlər və resurslardan istifadə etmələri gözlənilir. Bu kimi tapşırıqlar həm tibb kimi sahələrdə praktik olaraq bilikləri yoxlamaq üçün, həm də digər elmlərdə keyslərin üzərindən analiz aparmaları üçün istifadə olunur.
3. **Onlayn şifahi imtahanlar** – onlayn şifahi imtahan da qiymətləndirmə metodlarından biridir. Siz bu metod vasitəsi ilə keçirilən mövzular haqqında tələbələrə sual verərək onların cavabları əsasında qiymətləndirmə apara bilərsiniz. Bu zaman ən asas diqqət yetirməli olduğunuz məqam tələbələrin öz ideyalarını müxtəlif konseptlərdən istifadə edərək necə dəstəkləməsidir.
4. **Onlayn təqdimatlar** – müxtəlif onlayn vasitələrdən istifadə edərək təhsilalanlar onlayn təqdimatlar edə bilərlər. Bu zaman onlar PowerPoint, Prezi və s. kimi onlayn alətlərdən istifadə edərək öz biliklərini, bacarıqlarını və araşdırmalarını vizuallaşdıra bilərlər.

5. **Qrup işləri** – qrup işləri bir neçə tələbənin bir yerdə işləyərək təyin olunmuş mövzuda verilmiş tapşırığı yerinə yetirməsindən ibarətdir. Qrup işləri müxtəlif mövzularda və müxtəlif yönümlü ola bilər. Bu zaman təhsilalanlar həm təyin olunmuş mövzuda öz bilik və bacarıqlarını nümayiş etdirirlər, həm də komanda işi və kommunikasiya bacarıqlarını da inkişaf etdirirlər.

6. **"Case studies"** – bu tip tapşırıqlar zamanı müəllim təhsilalanlardan hər hansı real bir situasiyanı (problemi) oxuyub analiz etməyi yaxud ona həll yolu tapmağı tələb edir. "Case studies" tipli tapşırıqlar təhsil alanların həm nəzəri, həm də praktiki bacarıqlarını ölçmək üçün istifadə olunan ən yaxşı vasitələrdən biridir.

## *6.3. Qiymətləndirmə rubrikaları*

**Qiymətləndirmə cədvəli və ya rubrika** təhsilalanlara qiymətləndirmə meyarları barədə ətraflı məlumat verərək onların bu kimi fəaliyyətlərə daha yaxşı hazırlaşması üçün istiqamət verir. Müəllimlərə hər bir qiymətləndirmə tapşırığı üçün rubrikaları fənni tədris etməyə başlayarkən sillabuslarda əks etdirmələri tövsiyə olunur. Distant təhsildə keçirilən fənnin rubrikalarının yaradılması və dəyişdirilməsi üçün çoxsaylı resurslar mövcuddur, (məsələn, RubiStar). Rubrikalar analitik və holistik (vahid) olaraq iki yerə ayrılır. Analitik rubrika tələbələrə hər bir bacarıq üçün bir performans səviyyəsinin necə göründüyünə dair təlimatlar təqdim edən bir rubrikadır. Holistik isə tələbələrin əvvəlcədən müəyyən edilmiş səviyyələri əsasında fəaliyyət və ya bənd üzrə ümumi nailiyyətlərini qiymətləndirmək üçün isti-

fadə olunan vahid meyar ölçüsüdür. Aşağıdakı cədvəllərdə holistik və analitik rubrikalarla bağlı nümunələr ilə tanış ola bilərsiniz.

*Cədvəl 9. Esse tipli tapşırıqların qiymətləndirilməsi üçün ümunə holistik rubrika cədvəli*[16]

| Qiymət | Kriteriya |
|---|---|
| **4 (80-100%)** | Tezis əsaslandırılıb və birbaşa ifadə edilib; arqumenti dəstəkləmək üçün müvafiq faktlar və anlayışlar məntiqi şəkildə istifadə olunur; bütün müvafiq faktlar və anlayışlar daxil edilib və dəqiqdir. Yazı aydın və axıcıdır; söz və üslub seçimi mövzuya uyğundur; qrammatika və ya istifadə səhvləri yoxdur. |
| **3 (70-79%)** | Tezis müdafiə edilə bilər və açıq şəkildə ifadə edilib; baxmayaraq ki, bəzi hissələrdə fikirlərin dəstəklənməsi zəif ola bilər, müvafiq faktlar və anlayışlar arqumentləri dəstəkləmək üçün məntiqi şəkildə istifadə olunub. Bütün yaxud ən uyğun faktlar və anlayışlar istifadə edilib; bəzi qeyri-müəyyənliklər mövcuddur. Ümumilikdə mətn aydındır; mövzuya uyğun söz seçimi və yazı üslubu seçilib; qrammatikanın istifadəsində bir neçə səhv var və bəzi yerlərin mənasında anlaşılmazlıqlar var. |
| **2 (60-69%)** | Tezis aydın şəkildə ifadə edilməmişdir; bəzi ideyaları əsaslandırmaq cəhdləri edilir; bəzi müvafiq faktlar və konseptlərdən istifadə olunub; bəzi qeyri-dəqiqliklər var. Fikirlər aydın deyil; üslub zəifdir; qrammatika istifadəsindəki bəzi səhvlər anlaşılmazlığa səbəb olur. |
| **1 (50-59%)** | Əsaslandırılmamış tezis; fikrin tam izah edilməməsi və ya məntiqi ardıcıllığın olmaması; müvafiq faktlar və konseptlər istifadə olunmamışdır, yaxud uyğun olmayan faktlar və konseptlərdən istifadə olunub. Yazı dili aydın deyil və pis yazı üslubu var; qrammatika istifadəsində çoxlu səhvlər mövcuddur. |

[16] Brookhart (2004) tərəfindən Brookhart (1999) tərəfindən hazırlanan cədvəl adaptasiya olunub.

*Cədvəl 10. Esse tipli tapşırıqların qiymətləndirilməsi üçün nümunə analitik rubrika cədvəli*[17]

| Qiymətlər | Tezis və struktur/kriteriyalar |
|---|---|
| **4 (80-100%)** | Tezis müdafiə üçün uyğundur və açıq şəkildə ifadə olunub; fikirlər, faktlar və anlayışlar arqumentləri dəstəkləmək üçün məntiqi şəkildə istifadə olunub. |
| **3 (70-79%)** | Tezis müdafiə edilə bilər və açıq şəkildə ifadə edilir; müvafiq faktlar və anlayışlar arqumenti dəstəkləmək üçün məntiqi şəkildə istifadə olunub. Bəzi dəstəkləyici fikirlər zəif ola bilər və ya məntiqi izah oluna bilməz. |
| **2 (60-69%)** | Tezis aydın şəkildə ifadə edilməmişdir; bəzi dəstəkliyici fikirlərdən istifadəyə cəhd olunmuşdur. |
| **1 (50-59%)** | Tezis aydın deyil və ya yaxşı müdafiə olunmayıb; dəstəkləyici arqumentlər yoxdur, yaxud məntiqli deyil. |
| **Qiymətlər** | **Məzmun/kriteriyalar** |
| **4 (80-100%)** | Bütün müvafiq faktlar və konseptlər qeyd olunub. Hər şey dəqiqiliklə ifadə olunub. |
| **3 (70-79%)** | Ən uyğun faktlar və anlayışlar uğurla ifadə olunub; qeyri-dəqiqliklər azdır. |
| **2 (60-69%)** | Bəzi müvafiq faktlar və konsepsiyalar qeyd olunmuşdur; bəzi qeyri-dəqiqliklər mövcuddur. |
| **1 (50-59%)** | Faktlar və arqumentlər göstərilməyib, yaxud uyğun olmayan faktlar bildirilib. |
| **Qiymətlər** | **Yazı üslubu və mexanikası/kriteriyalar** |
| **4 (80-100%)** | Yazı dili aydın və səlistdir; söz seçimi və üslub mövzuya uyğundur; qrammatikada səhv yoxdur. |
| **3 (70-79%)** | Yazı ümumiyyətlə aydındır; söz seçimi və üslubu mövzuya uyğundur; qrammatika istifadəsində daha az səhv var. Mətnin mənası anlaşılandır. |
| **2 (60-69%)** | Yazı dili aydın deyil; üslubu zəifdir; qrammatika istifadəsində bəzi səhvlər mətnin ümumi mənasında uyğunsuzluq yaradır. |
| **1 (50-59%)** | Yazı dili aydın deyil; üslub zəifdir; qrammatika istifadəsində çoxlu səhvlər mövcuddur. |

[17] Brookhart (2004) tərəfindən Brookhart (1999) tərəfindən hazırlanan cədvəl adaptasiya olunub.

# 7. TƏDRİS STRATEGİYALARI / ÖYRƏNMƏ FƏALİYYƏTLƏRİ

## *7.1. Tədris strategiyaları*

**Mühazirə dərsləri**

Mühazirə dərsləri əsasən monoloq şəklində olması ilə xarakterizə olunur. Müəllim əvvəldən hazırladığı təqdimatı təhsilalanlara göstərərək onlara dərsi izah edir. Lakin bu cür yanaşma tədris zamanı təhsilalanlar ilə qarşılıqlı əlaqəni limitləyərək daha dərin öyrənmə prosesinə təsir göstərir (Diaqram 8).

*Diaqram 7. Mühazirə əsaslı yanaşma*[18]




*Cədvəl 11. Mühazirə dərslərinin keyfiyyətini artırmaq üçün nəzərə alınmalı məqamlar*[19]

| **Fəaliyyətin adı** | **İzahı** |
|---|---|
| Dərsin planını paylaşmaq | Dərsin planını başlayarkən vermək tələbələrin mövzular arasındakı əlaqəni daha yaxşı anlaması üçün imkan yaradır. |

[18] University of Michigan Center for Research on Learning and Teaching (n.d.)

[19] Yale Center for Teaching and Learning (n.d.-b)

*Cədvəl 12-un davamı*

| | |
|---|---|
| Aktiv öyrənmə fasilələrindən istifadə etmək | Aktiv öyrənmə fəaliyyətlərindən istifadə etməklə mühazirələrdə təhsilalanların iştirakçılığını artırmaq və dərsə diqqət yetirmələrini təmin etmək mümkündür. |
| Bir mövzudan digər mövzuya və ya fikrə keçməyi aydın etmək | Yeni mövzuya və ya fikrə keçildiyini müəllim təqdimatda və ya nitqində qeyd etmək ilə bildirə bilər. |
| Təkrarçılıqdan istifadə etmək | Uzun mühazirə tələbələrin diqqətini saxlamaqda çətinlik yaratdığından müəllim tez-tez əsas məqamları təkrarlaya-təkrarlaya önəmli informasiyanın qarşı tərəfin yadında qalmasına nail ola bilər. |
| Materialların uyğunluğunu təmin etmək | Müəllimlər mühazirə təqdimatı ilə tələbələrə əvvəldən göndərdikləri materialların uyğunluğundan yarana biləcək çaşqınlığı aradan qaldırmaq üçün əmin olmalıdır. |
| Mövzuları hissələrə bölmək | Əlaqələr qurmaq və mövzunu misallar ilə anlamaq üçün mürəkkəb mövzular, müxtəlif slaydlar, fəaliyyətlər və illustrasiyalardan istifadə etməklə hissələrə bölünərək tələbələrə ötürülməlidir. |
| Qeydlər götürməyi həvəsləndirmək | Mühazirə zamanı qeydlər götürmək tələbələrin materialı öyrənməsi üçün dəstək olduğundan müəllim tərəfindən sözügedən fəaliyyət üçün imkan yaradılmalıdır. |
| Əlçatanlığı təmin etmək | Müəllimlərdən səs, görmə, yazma əngəlli olan tələbələr üçün xüsusi yollardan istifadə edərək mühazirə aparması gözlənilir. |

**“Flipped Classroom”**

Tədris prosesini effektiv şəkildə təşkil etmək və təhsilalanlar üçün məsafədən fəaliyyətləri daha asan və inklüziv etmək üçün dünya təcrübəsində bir sıra fərqli nümunələr mövcuddur. İnnovativ distant təhsil metodlarından biri də “Flipped” tədris metodudur. “Flipped classroom” metodu zamanı müəllimlər əvvəlcədən çəkilmiş videomühazirələr, təqdimatlar, onlayn modullar, oxu materialları və s. istifadə etməklə materialların təhsilalanlar tərəfindən mühazirədənkənar şəkildə çatdırılmasını təmin edirlər. Bu yolla müəllimlər hər hansı yeni bir mövzunun tədrisinə başlamamışdan əvvəl tələbələrdə həmin mövzu haqqında müəyyən ilkin biliklər formalaşdırır. Mühazirə zamanı isə təhsilalanların mövzunu daha dərindən mənimsəməsi üçün bir sıra aktiv öyrənmə fəaliyyətlərindən istifadə olunur. Bu zaman əsas istiqamət təhsilalanları həmin mövzu haqqında fikirləşməyə, düşünməyə və mövcud problemlər haqqında fikir mübadiləsi aparmağa yönəlir (Diaqram 9).

*Diaqram 8. “Flipped classroom” zamanı proses*[20]




[20] University of Michigan Center for Research on Learning and Teaching (n.d.)

“Flipped classroom” metodunun ədəbiyyatda qeyd olunmuş üstünlükləri aşağıdakı kimidir[21]:

- Dərs zamanı təhsilalanlara daha fərdi yanaşmanın tətbiq olunması
- Praktika etmək üçün və təhsilalanların mövzunu daha dərindən mənimsəməsi üçün daha çox dəstək
- Təhsilalanların müəllimləri və digər qrup yoldaşları ilə qarşılıqlı əlaqədə olması üçün daha çox imkan
- Mühazirələrin sürətinin təhsilalanlar tərəfindən tənzimlənməsi-əvvəldən çəkilmiş videomühazirələri dayandıraraq, geri və ya qabağa verərək təhsilalanlar izləyə bilir.
- Möhkəmlilik- videolar əvvəlcədən çəkildiyi üçün, dərs zamanı fəaliyyətlər rahat olduğu üçün hər hansı texnologiya və ya həyat ilə bağlı səbəblərdən fors-major hallar çıxdıqda dərslər axsamır.

QEYD[22]: “Flipped classroom” metodunu müəllimlər həftədə bir mühazirəyə, və ya bəzi seçdikləri mövzulara da tətbiq edə bilərlər. Qeyd etmək lazımdır ki, hər dəfə video mühazirə çəkməyə ehtiyac yoxdur. Müəllimlər başqalarının yaratdığı videolar, animasiyalar, podkastlar, təqdimatlar və məqalələrdən də dərsə hazırlıq üçün istifadə edə bilərlər.

Dərsin mühazirəsini əvvəldən göndərmək məqsədilə video çəkiliş[23] üçün əsas məqamlar aşağıda qeyd olunmuşdur[24]:

---

[21] Berkeley Center for Teaching and Learning (n.d.-b)
[22] Berkeley Center for Teaching and Learning (n.d.-b)
[23] Nümunə platformalar üçün fəsil 9-a baxa bilərsiniz.
[24] University of Virginia Center for Teaching Excellence (2019)

1. *Əvvəlcə mövzunun qısa məzmununu yaradın.*
2. *Növbəti olaraq çəkilişin aparılacağı proqrama qərar verin.*
3. *Çəkiliş zamanı səsyazma üçün sakit bir mühit seçin.*
4. *Videoçəkilişə başlayan zaman ana ekranda açıq olan digər proqramları bağlayın, iş masanızı təmizləyin, ekrana gələ biləcək xatırlatmaları söndürün.*
5. *Video zamanı istifadə edəcəyiniz bütün tədris materiallarını hazır və sənədləri açıq saxlayın.*
6. *Tədris olunacaq mövzudan asılı olaraq azdəqiqəli videolar hədəfləyin.*
7. *İlk öncə videonun əvvəlində və daha sonra sonunda nələri əhatə etdiyinizi qısaca ümumiləşdirərək qeyd edin.*
8. *Danışarkən sərbəst və təbii danışın, mövzunu izah edərkən isə misallardan istifadə edin.*
9. *Gələcək illərdə də istifadə etmək üçün tarixlə bağlı məlumat paylaşmayın.*
10. *Videonu qısa saxlamaq, səhvləri və ya fasilələri aradan qaldırmaq üçün videonu redaktə edin.*
11. *Sonuncu olaraq tələbələr üçün transkript yaradın.*

## *7.2. Aktiv öyrənmə fəaliyyətləri*

Təhsilalanları tədris prosesində daim aktiv saxlamaq və onların iştirakçılığını artırmaq üçün aktiv öyrənmə metodlarından istifadə olunur. **Aktiv öyrənmə** konseptinə ilk dəfə 1991-ci ildə Bonwell and Eison tərəfindən "təhsilalanları icra etməyə və yerinə yetirdikləri tapşırıqlar haqqında düşünməyə cəlb edən fəalliyyətlərin təşkili" kimi tərif verilmişdir (Yale Center for

Teaching and Learning (n.d.-a)). Aktiv öyrənmə təhsilalanları qulaq asmaqdan və passiv şəkildə qeyd götürməkdən kənar öyrənmə prosesində iştirak etmək üçün istifadə olunan hər hansı tədris metodu kimi də başa düşülür. Müxtəlif aktiv öyrənmə fəaliyyətləri və onların distant təhsildə istifadə yolları cədvəl 10-da verilmişdir.

*Cədvəl 13. Distant təhsildə istifadə oluna biləcək müxtəlif aktiv öyrənmə strategiyaları* [25,26]

| Strategiya | Distant şəkildə istifadəsi |
|---|---|
| **Məqsədli pauza:**<br>**1. Düşünmək üçün**<br>**2. İki nəfərlik qrupda müzakirə üçün** | Pauza zamanı tələbələrdən iki iş xahiş oluna bilər:<br>1. Bir neçə dəqiqə yazılı şəkildə nə öyrəndiklərini ümumiləşdirmək və tez bir şəkildə yaranan suallarını yazmaq (Kameralarını bağlaya bilərlər)<br>2.Yaradılmış kiçik müzakirə otağına ("Breakout room") daxil olaraq qrup yoldaşı ilə qeydlərin üzərindən keçmək və yaranan suallarını müəyyənləşdirmək (Əsas otağa qayıdandan sonra əl qaldırmaq funksiyası ilə ya şifahi, ya da mesaj bölməsinə yazmaqla yazılı şəkildə suallarını müəllimə ünvanlaya bilərlər.) |
| **Tez yazı və ya dəqiqə kağızı** | Slaydlar və ya mesaj bölməsindən istifadə etməklə müəllim konseptual, düşündürücü sual yerləşdirir. 5 dəqiqədən az bir müddətdə tələbələrdən elektron və ya əlyazısı şəklində cavab yazması gözlənilir. Elektron formalardan (anonimliyi qoruyaraq) istifadə edərək müəllim cavabları daha sonra ekran vasitəsilə bölüşə də bilər.<br>Müəllim bu fəaliyyət növünü, həmçinin dərsin əvvəlində tələbələrin keçən dərsdən yadda qalan əsas məqamları və ya dərsin sonunda əsas öyrəndiklərini və növbəti addımları yazmaları üçün istifadə edə bilər. |

[25] Berkeley Center for Teaching and Learning (n.d.-a); Yale Center for Teaching and Learning (n.d.-a)

[26] Daha ətraflı elmi izah üçün Harvard University ablconnect (n.d.) tərəfindən müvafiq səhifəyə nəzər sala bilərsiniz.

*Cədvəl 10-un davamı*

| | |
|---|---|
| **Düşün- Qoşala-Bölüş** | Tələbələr 1-2 dəqiqə sual və ya formativ qiymətləndirmə tapşırığı (Bloom-un taksonomiyasında tətbiq, analiz və qiymətləndirmə səviyyələrinə uyğun) üzərində fərdi olaraq işləyir. Növbəti 2-3 dəqiqə tələbələrdən iki nəfərlik qrup şəklində kiçik müzakirə otağına (“Breakout room”) daxil olaraq müzakirə etmələri gözlənilir. Daha sonradan hər bir kəsin önündə qruplar öz cavablarını şifahi və ya yazılı şəkildə paylaşır. Son olaraq müəllim öz izahını verir. |
| **Səsvermə** | Müəllim müxtəlif alətlərdən[27] istifadə etməklə sual (bir neçə cavabı olan) soruşur və tələbələrdən ona anonim şəkildə cavab verilməsi gözlənilir. Daha sonradan daha effektiv nəticə əldə etmək üçün tələbələrə qrup şəklində müzakirə etmək şansı verilir və yenidən səsvermə bilirlər. Bu fəaliyyətdə tələbələr qrup şəklində müzakirə etməklə niyə öz seçdikləri ilkin cavabın daha düzgün olduğunu digərlərinə izah etməyə çalışırlar. Müəllim daha sonradan nəticələrə və tələbələrin izahlarına baxaraq öz əlavələrini edir. Tələbələrin cavablarının ümumiləşdirilmiş diaqramı hamı ilə ekran vasitəsilə bölüşülə bilər. |
| **Konsept xəritəsi** | Konsept xəritələri müxtəlif mövzular/konseptlər arasında qarşılıqlı əlaqəni özündə əks etdirən şəkillər və ya diaqramlardır. Müəllim ilk öncə tələbələrə konseptlər və ya terminlərdən ibarət siyahı verir, və ya onlardan özlərinin siyahı yaratmasını xahiş edir. Tələbələr daha sonra siyahıdakı konseptlər arasında əlaqə yaratmalı və bir neçə sözlə bu əlaqənin təbiətini izah etməlidir. Tələbələr bunu əl ilə çəkərək onlayn yükləyə bilər və ya ağ lövhə[28] kimi interaktiv alətlərdən istifadə |

[27] Nümunə platformalar üçün fəsil 9-a baxa bilərsiniz.
[28] Nümunə platformalar üçün fəsil 9-a baxa bilərsiniz.

| | |
|---|---|
| | edərək onlayn üzərində işləyə bilərlər. Bu tapşırıq fərdi və ya qrup şəklində edilə bilər. |

*Cədvəl 10-un davamı*

| | |
|---|---|
| **Keys araşdırması/ Qrup şəklində problem həll etmə** | Keys araşdırmaları tələbələrin real həyat situasiyalardan istifadə etməklə biliklərini tətbiqetməyə imkan yaradan ssenarilərdir. Çox zaman hekayə formatında olub tələbələrdən qrup şəklində yaranan problemi həll etməyi və ya verilən sualları cavablamağı gözlənilir. Tapşırıq daha çətin və vaxtalıcı olduğundan müəllim bu müddət ərzində kiçik müzakirə otaqlarına ("Breakout room") daxil olaraq vəziyyətə nəzarət edə və tələbələrə yol göstərə bilər. Tələbələr bu tapşırıqları dərsdənkənar da edə bilər. Dərs zamanı etdikləri işləri təqdim etməklə daha az ayrıla bilər. |
| **Səsli düşünərək problem həll etmə** | Xırda qruplara bölünmüş tələbələrə problem və dəyişdirilə bilən rollar (məsələn, problemi həll edən, eşidən) təqdim edilir. Problemi həll edən şəxs necə həll edəcəyini eşidən şəxsə ətraflıca izah edir, eşidən şəxs isə ona məsləhət verir və yol göstərir. Müəllim bu müddət ərzində kiçik müzakirə otaqlarına ("Breakout room") daxil olaraq vəziyyətə nəzarət edə bilər və tələbələrə yol göstərə bilər. |
| **Mişar** | Xırda ekspert qruplarda tələbələr spesifik mövzunu müzakirə edir, hamının anladığından əmin olur, digər qrup yoldaşlarına öyrətmək üçün yanaşma müəyyən edirlər. Daha sonradan qruplar dəyişir, yeni qruplarda tələbələr əvvəlki qruplarda ekspert olduqları mövzunu izah edirlər. Beləliklə, hər bir yeni qurulmuş qrupda müxtəlif mövzular ilə bağlı ekspertlər olur. Müəllim ekspert qruplarına hazırlaşmağı tələbələrə dərsdən əvvəl bildirsə, kiçik müzakirə otaqlarına ("Breakout room") ikinci qruplar yaradıla bilər. |
| **Böyük qrup müzakirələri** | Keçirilən mövzulara əsasən hər hansı bir oxu materialı, video, məqalə, yaxud təqdimat haqqında qrup müzakirələri təşkil etmək. Müzakirələri fasilitasiya etmək üçün siz əvvəlcədən suallar da hazırlaya bilərsiniz. Onlayn öyrənmə sistemlərindən (Microsoft Teams, Blackboard, Moodle və s.) istifadə edərək müzakirələri asanlıqla onlayn fasilitasiya edə bilərsiniz. |

| | |
|---|---|
| **Səhvləri müəyyən etmə** | Müəllim oxu materialları, sübutlar və digər səhvlər olan sənədləri tələbələrə təqdim edir. Tələbələr səhvləri tapmalı və düzəltməlidirlər. |

# 8. KOMMUNİKASİYA

Ənənəvi təhsilalma formasından fərqli olaraq müəllimlər xüsusi olaraq təhsilalana (dərsdən əvvəl və sonra onların suallarına cavab vermək, müzakirələrdə iştirak, rəy bildirmək və s.) xüsusi vaxt ayırmalıdır. Belə ki, distant təhsildə müəllimi görmədən və əlaqəyə keçməyəndə təhsilalanlar tədris prosesindən kənarlaşa bilər. Müəllimin mövcudluğu təhsilalanlar arasında iştirakçılığı artırmaq, bilik əldə edilməsi prosesini fasilitasiya etmək və öyrənmə mühitinin yaradılması üçün əsas rol oynayır. Fənni hər hansı bir çərçivədən istifadə etməklə dizayn etdikdən sonra müəllim tərəfindən məzmunun təhsilalanlara təqdim edilməsinə ehtiyac vardır. Bu fəsildə müəllimin dizayn etdiyi fənn barəsində məlumatları təhsilalanlara çatdırması, onlarla qarşılıqlı əlaqənin qurulması və s. yer alacaqdır. Müəllim aşağıdakı sıralamanı izləyə bilər:

1) **Özü barədə məlumat təqdim etmə**- Semestr başlayarkən müəllimin özünü yazılı şəkildə və ya video[29] hazırlamaqla qısa şəkildə təqdim etməsi təhsilalanlar ilə ilkin xoş və müsbət əlaqənin qurulmasında əhəmiyyət kəsb edir. Müəllim özünü təqdim edir, öz təcrübəsini qeyd edir, fənn ilə bağlı maraqlı məqamlara toxunur. Video şəklində bu məlumatı çatdırmaq xüsusən təhsilalanların müəllimin şəxsi keyfiyyətini, və kommunikasiya stili ilə bağlı məlumatı güclü şəkildə ötürməsi üçün bir vasitədir.

[29] Video çəkiliş ilə bağlı təlimat üçün fəsil 7-yə yenidən nəzər sala bilərsiniz.

2) **Orientasiya videosunu paylaşmaq-** Dərslərə başlayarkən həm fənn, həm də onun məsafədən tədrisi üçün istifadə olunacaq platformalar haqqında **oriyentasiyanın** təmin edilməsi təhsilalanlar üçün bu cür təhsilalma formasına uyğunlaşmağa dəstək göstərəcəkdir. Müəllim yazılı və ya video (əvvəlcədən çəkilmiş və ya canlı görüş) şəkildə edəcəyi orientasiyada aşağıdakı məlumatlar yer ala bilər:

- Fənnin proqramı (fənn haqqında ümumi məlumat, məqsədi, öyrənmə hədəfləri, nəticələri)
- Fənnin tədris olunacağı platforma (istifadə imkanları) və texniki dəstək üçün əlaqə
- Fənn ilə bağlı kommunikasiya planı (kurs, sərbəst işləri təhvil vermək üçün son müraciət tarixi və s. )

3) **Sual&cavab üçün sosial/müzakirə forumları yaratmaq-** Öyrənənlər ilə daha asan kommunikasiya qurmaq üçün istifadə olunan öyrənmə platformaları üzərindən və ya kənar mediumlar üzərindən sosial/müzakirə forumları təşkil edərək müəllim həm özü onlarla birbaşa kommunikasiya edə, həm də tələbələrin bir-biri ilə əlaqə yaratması üçün imkan yarada bilər. Müəllim bu forumlarda iştirak etmək üçün tələbələri məlumatlandırmalı və onları istifadə qaydaları ilə tanış etməlidir.

4) **Həftəlik kommunikasiya göndərmək**-Təhsilalanları həftəlik fənn ilə bağlı istiqamətləndirmək və önəmli xatırlatmalar, elanlar göndərmək digər vacib şərtlərdəndir. cədvəl 11-də həftəlik kommunikasiya planına daxil edə biləcəyiniz məqamlar ilə bağlı tövsiyələr verilmişdir. Əlavə olaraq, çox soruşulan sualları cavablamaq, mövcud konfranslar və digər imkanlar barədə tələbələri məlumatlandırmaq üçün də göndərəcəyiniz məlumatda yer ayıra bilərsiniz.

*Cədvəl 14. Həftəlik kommunikasiya planına dair tövsiyələr*

| Həftə X | |
|---|---|
| Ümumi məlumat | Bu həftə hansı mövzulara toxunacağınızı qeyd edin və yeni mövzuları təqdim edin.<br>Keçən həftə və gələcək həftə ilə əlaqələr qurmağa çalışın.<br>Fənnin ümumi öyrənmə nəticələri ilə əlaqəni göstərin. |
| Öyrənmə hədəfləri və ya nəticələri | Sözügedən həftədə nəzərdə tutduğunuz öyrənmə nəticələrini qeyd edin. |
| Önəmli xatırlatmalar | Bu həftə və ya sonrakı həftələr üçün önəmli xatırlatmaları qeyd edin. |
| Həftəlik fənn materialları, öyrənmə fəaliyyətləri | |
| Oxu | Ədəbiyyat siyahısını (əsas və köməkçi) düzgün istinad göstərməklə qeyd edin. |
| Bax | Sizin çəkdiyiniz və ya digər mənbələrdən əldə etdiyiniz videoları yerləşdirin və izahını əlavə edin. |
| Fəaliyyətlər | Həftə ərzində tələbələr tərəfindən edilməli olan fəaliyyətlər və ya tapşırıqları qeyd edin. |
| Əlavə resurslar | Həftənin mövzuları ilə əlaqəli olan digər resursları göstərin. |

5) **Virtual ofis saatları müəyyən etmək-** Virtual ofis saatlarından istifadə edərək tələbələr çətinllik çəkdikləri mövzular və digər problemlər haqqında öz suallarına cavab tapa bilərlər. Bu səbəbdən onlara qısa onlayn görüş (məsələn, cədvəl üzrə yazılmaqla) və ya onlayn aktiv olacaq vaxtlarınız ilə bağlı dəqiq məlumatın müəllim tərəfindən ötürülməsi vacibdir.

6) **Suallara geri dönmək üçün vaxt müəyyən etmək-** Hər bir tələbə tərəfindən gələn kommunikasiyaya 24 saat ərzində geri dönmək məsləhət olunur. Bu tələbələrin vaxtlarını idarə etməsi üçün vacibdir. Əgər ətraflı məlumatı vermək üçün daha gec bir zamanda müəllimin imkanı olacaqsa, bu zaman tələbəni bu haqda məlumatlandırmaq gərəkdir.

7) **Tələbələrin işinə vaxtında və mənalı rəy vermək-** Müəllimin yoxlama zamanına uyğun olaraq tapşırıqlarına rəy verməsi tələbələrin gözləntilərini qarşılamaq üçün əhəmiyyət kəsb edir.

8) **Fənnin qaydalarını effektiv şəkildə təhsil alanlara çatdırmaq-**Onlayn testlərdən istifadə edərək müəllim təhsilalanların fənnin qaydaları haqqında biliklərini yoxlaya bilər. Təhsilalanlar sillabusdakı qaydalarla yaxından tanış olduqca onlarda əlavə sualların yaranma ehtimalları azalır.

*Fənn proqramı (Sillabus)*

Sillabus fənni tədris edərkən müəllim və tələbə arasında düzgün kommunikasiyanı əks etdirən əsas sənəddir. Fənn proqramı tələbələrə fənnin dizaynı və tədrisi barədə məlumat verərək onlara tədris boyunca istiqamətləndirir. Tələbələrin öyrənmə prosesində pozitiv roluna görə müəllimin keyfiyyətli və ətraflı sillabus tərtib etməsi müəyyən vaxt tələb edir. Cədvəl 12-də sillabuslarda əksər hallarda əks olunan əsas məqamlar yer almışdır. Müəllim öz fənninə görə uyğunlaşdıra bilər.

*Cədvəl 15. Effektiv onlayn sillabus üçün vacib elementlər*[30]

| | |
|---|---|
| Tədris edən haqqında məlumat | • Adı, soyadı, elmi adı, təhsili<br>• Əlaqə məlumatı (institusional elektron poçt ünvanı, ehtiyac olarsa əlaqə nömrəsi)<br>• Rəsmi profili (müəssisədəki səhifələri, Linkedin profili və s.)<br>• Qısa bioqrafiya<br>• Müəllimin öyrətmə fəlsəfəsi və metodologiyası<br>• Ofis saatları (Virtual iş saatları)<br>• Assistantları (əgər varsa) haqqında məlumatlar |

[30] Müəyyən sıra ilə düzülməmişdir.

*Cədvəl 16-nin davamı*

| | |
|---|---|
